www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 dekabr 2015-ci il Çərşənbə № 280 (6308) Qiymәti 40 qəpik

**Xəbər**

## Manatın taleyi Amerikada həll olunur - kritik qərara bir gün qaldı

yazısı səh.15-də

**Gündəm**

### Tanınmış rusiyalı politoloqdan Qarabağda müharibə xəbərdarlığı



Ekspert savaşı qaçılmaz hesab edir; "O halda Rusiya Ermənistanı, Ermənistan da öz növbəsində Qarabağdakı separatçı qüvvələri dəstəkləyəcək..."

yazısı səh.11-də

### XİN Akif Nağıya qadağa qoyulmasına münasibət bildirdi

yazısı səh.5-də

### MTN generalının terrorçuya çevirdiyi mütəxəssisin acı hekayəti

yazısı səh.10-da

### Neftin bəzi növləri 20 dollara düşdü

yazısı səh.15-də

### Azərbaycan ABŞ-a nota verdi

yazısı səh.2-də

### Əfv ərizəsi yazmayan Əli İnsanov azad edilə bilər

yazısı səh.3-də

### Azərbaycan dilinə görə də sərt cərimələr gəlir

yazısı səh.5-də

### Ermənistanın izolyasiyası güclənir - düşmən təlaşda

yazısı səh.13-də

### Vitse-spikerdən Rusiya ilə bağlı açıqlamalar

yazısı səh.11-də

### Nardaranda saxlanılanlardan xəbər yoxdur

yazısı səh.3-də

### Məmur xəstəliyi - şəkərli diabet

yazısı səh.15-də

### İqtidarın "Çayka"sı niyə yoxdur?

yazısı səh.3-də

### Yumurta bahalaşdı, bazar qarışdı...

yazısı səh.14-də

## Azərbaycan yenə ciddi seçim qarşısında

# İŞİD-Ə QARŞI YENİ KOALİSİYA: RƏSMİ BAKIYA DA DƏVƏT GƏLDİ

**Səudiyyə kralı Azərbaycanı terrorçu Bağdadiyə qarşı koalisiyaya çağırdı; seçimi çətinləşdirən həm də dünyada anti-İŞİD koalisiyasının iki cəbhəyə bölünməsidir**




yazısı səh.7-də

## Etibar Pirverdiyev hesablamada "yandı"

Hesablama Palatası "Azərenerji" ASC-də aparılmış auditin nəticələrinə dair şok məlumat yayıb; ASC sədri hakimiyyətdəki etibarını tam itirib

yazısı səh.12-də



### Sərdar Cəlaloğlundan şeyxlə bağlı yeni ilginc açıqlamalar

yazısı səh.6-da



*Hacı Əbdül:*

### "Tahir Kərimli tövbə elədi, düzəldi, hətta deputat oldu"

yazısı səh.4-də



*Elçin Şıxlı:*

### "Rauf Mirqədirov onu tutanlar haqda deyib ki, yıxılana balta çalmazlar"

yazısı səh. 8 və 9-da

# Azərbaycan ABŞ-a nota verdi




## Deputatın qohumu maşınla iki tələbə qızı vurdu

**Lənkəran Dövlət Universitetinin (LDU) müəllimi Tükəzban Cahangirova idarə etdiyi avtomobillə LDU-nun iki tələbəsini vurub. "Report"un xəbərinə görə, hadisə universitetin tədris korpusunun qarşısında baş verib.**

Şahidlərin bildirdiyinə görə, qulaqcıqdan istifadə edən qızlar nəqliyyat vasitəsini görməyiblər. Hər iki tələbə xəstəxanaya aparılıb. Onların ciddi xəsarət almadığı bildirilir.

Faktla bağlı Dövlət Yol Polisi İdarəsində (DYPİ) araşdırma aparılır.

Qeyd edək ki, hadisəni törədən pedaqogika üzrə fəlsəfə doktoru, şair-publisist Tükəzban Cahangirova deputat Hüseynbala Mirələmovun qohumudur.

## Qarabağda itkin düşənlərin yeni siyahısı açıqlandı

**Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) itkin düşmüş şəxslərin yenilənmiş siyahısını açıqlayıb. BQXK-dan virtualaz.org-a verilən məlumata görə, atəşkəs haqda razılaşmadan 20 ildən çox keçməyinə baxmayaraq, ailələr hələ də Dağlıq Qarabağ münaqişəsi zamanı itkin düşmüş əzizlərinin taleyindən bixəbərdir. Bunu aydınlaşdırmaq yönündə səylərinin bir hissəsi kimi, BQXK münaqişə tərəflərinə Bakı və Yerevan nümayəndəliklərinin və Dağlıq Qarabağdakı missiyasında qeydiyyatdan keçirilmiş 4496 nəfər itkin şəxsin adı olan yenilənmiş siyahı təqdim edib.**

Siyahı sonuncu dəfə 2004-cü ildə təqdim olunub və o vaxtdan bəri BQXK, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyaları və itkinlərin ailələri ilə sıx işləyərək silahlı münaqişə dövründə itkin düşmüşləri qeydiyyatdan keçirib və bu şəxslərin işlərilə ardıcıl məşğul olub.

Beynəlxalq humanitar hüquqa əsasən, münaqişə tərəfləri itkin düşmüş şəxslərin taleyini aydınlaşdırmaq üçün əlindən gələni etməlidir. BQXK inanır ki, yenilənmiş siyahı hakimiyyət nümayəndələrinə məlumatı ümumiləşdirməkdə və bu yöndə səylərini artırmaqda kömək edəcək. BQXK, neytral, qərəzsiz və müstəqil humanitar təşkilat olaraq tərəflərə öz təcrübəsi ilə və onların arasında neytral vasitəçi kimi dəstək verməkdə davam edəcək.

Cenevrə konvensiyalarına əsaslanan mandatına uyğun olaraq BQXK, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, BQXK 1992-ci ildən bəri bu regionda fəaliyyət göstərir və münaqişə nəticəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması təşkilatın ümdə məqsədlərindəndir.

## Məktəblərdə tətil nə vaxt olacaq?

**Azərbaycan Təhsil Nazirliyi Yeni il bayramı ərəfəsində və günlərində orta məktəb şagirdləri və müəllimlərinin neçə gün istirahət edə biləcəklərinə aydınlıq gətirib. "Qafqazinfo" bildirir ki, Təhsil Nazirliyinin İnformasiya şöbəsinin müdir müavini, QHT və KİV-lə iş sektorunun müdiri Cəsarət Valehov «Trend»ə deyib ki, bütün ölkədə olduğu kimi, orta məktəblərdə də dekabrın 31-dən yanvarın 5-dək (2015-ci il) qeyri-iş günləri olacaq: "Şagirdlər dekabrın 30-da dərsdə olmalıdırlar. Dekabrın 31-dən yanvarın 5-dək isə dərs olmayacaq".**

C.Valehov qeyd edib ki, bütün şagirdlər üçün növbəti tətil 5 günlük, 27-31 yanvar tarixlərini (2016-cı il) əhatə edən qış tətili olacaq. Fevralın 1-dən isə şagirdlər yenidən dərsdə iştirak etməlidirlər.

Nazirlik rəsmisi bildirib ki, məktəblərdə ikinci yarımil 1 fevral - 14 iyun tarixlərini əhatə edir. Bu müddətdə yalnız ibtidai siniflər üçün 5 günlük (1-5 may) əlavə yaz tətili olacaq.

Ötən tədris illərində bütün şagirdlər üçün martın 17-dən 24-dək olan, 8 günlük "Yaz tətili"nə gəldikdə isə C.Valehov qeyd edib ki, bu tədris ilində şagirdlər üçün "Yaz tətili" olmayacaq: "Novruz bayramı günlərində ölkədə müəyyənləşdirilən qeyri-iş günlərinin sayı xeyli olduğundan məktəblilər üçün ayrıca olaraq, yaz tətili olmayacaq".

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

**Xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekutanı Xarici İşlər Nazirliyinə (XİN) dəvət edərək ona etiraz notasını təqdim edib.**


Robert Sekuta

XİN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, notada ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlikin 9 dekabr 2015-ci il tarixində Vaşinqtonda Ermənistanın ABŞ-dakı səfirliyi, erməni lobby təşkilatları və Konqresdə Ermənistan üzrə İşçi Qrupun təşkil etdiyi "Artsaxın müstəqilliyinin ildönümü" başlıqlı qurama tədbirə qatılması və tədbir çərçivəsində özünü Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin "xarici işlər naziri" kimi təqdim edən Karen Mirzoyanla görüşünə etiraz bildirilir.

Notada qeyd edilir ki, birbaşa Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan bu səpkidən olan tədbirlərdə ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədrinin iştirakı Minsk Qrupunun həmsədr institutunun mandatına tamamilə zidd və onun neytrallığı və qərəzsizliyinə kölgə salır. Bu kimi addımın kütləvi miqyaslı dəhşətli etnik təmizləmə və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması ilə müşayiət olunan Azərbaycanın ərazi bütövlüyünə qarşı gücdən istifadə nəticəsində yaranmış vəziyyətin legitim olaraq tanınmaması barədə ABŞ-ın rəsmi siyasətinə zidd olduğu da diqqətə çatdırılır.

Notada ABŞ ərazisində qondarma rejimin "təmsilçi"lərinin ictimai kampaniyalar və digər fəaliyyətlərə qoşulmasına şərait yaradılmasının Ermənistan-Azərbaycan münaqişəsi üzrə danışıqlar prosesinin irəlilədilməsinə yardım etmədiyi, əksinə, onsuz da mürəkkəb olan prosesin daha da gərginləşdirilməsinə xidmət etdiyinin dəfələrlə ABŞ Dövlət Departamentinin diqqətinə çatdırıldığı vurğulanır.

Sənəddə həmçinin Ermənistan tərəfinin təxribat xarakterli addımlarına adekvat reaksiyanın göstərilməməsinin onun cəzasızlıq hissini daha da artırmasına, qanunsuz rejimin "təmsilçi"lərinə hər hansı bir vəzifədə və ya məqsədlə ABŞ-a daxil olmasına icazə verilməsinin isə Ermənistanın qeyri-konstruktiv mövqeyində qalmasına və Azərbaycan ərazilərinin işğalını davam etdirməsinə rəvac verdiyi vurğulanır.

Notada ABŞ-ın beynəlxalq müstəvidə məsuliyyətli dövlət kimi beynəlxalq öhdəliklərinə və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsinə sadiq qalacağı, Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən yaradılmış qanunsuz rejimi tanımamaq siyasətini daha da gücləndirəcəyinə ümidvarlıq ifadə olunur.

Səfiri Robert Sekuta Azərbaycanın narahatlıq və narazılığının ifadə olunduğu notanın Dövlət Departamentinə təqdim olunacağını bildirib.



## 1 ildə 94 min nəfər artmışıq

**Azərbaycan əhalisinin sayı bu ilin əvvəlindən 94 min 300 nəfər və ya 1% artaraq 2015-ci il noyabr ayının 1-i vəziyyətinə 9 milyon 687 min 300 nəfərə çatıb.**

Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, əhalinin sıxlığı bir kvadrat kilometrə 112 nəfərdir. Əhalinin 53,1%-i şəhər, 46,9%-i isə kənd sakinləridir. Əhalinin 49,8%-ni kişilər, 50,2%-ni qadınlar təşkil edir. Hazırda orta hesabla hər 1000 kişiyə 1009 qadın düşür.

Bu ilin yanvar-oktyabr aylarında ölkədə 138,4 min körpə doğulub və əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstərici 17,4 təşkil edib. Doğulan körpələrin 53,3%-ni oğlan, 46,7%-ni qız uşaqları təşkil edir. Doğulan körpələrdən 2516-sı əkiz, 72-si isə üçəmdir.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ilin 10 ayı ərzində 45,5 min ölüm halı qeydə alınıb və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9-dan 5,7-yə qədər azalıb.

## Asim Mollazadə İsrailin nümayəndə heyəti ilə görüşüb


Asim Mollazadə

**Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə İsrail Xarici İşlər Nazirliyinin nümayəndə heyətini qəbul edib. Partiyanın mətbuat xidmətinin məlumatına görə, partiyanın qərargahında keçirilən görüşdə Azərbaycan-İsrail əlaqələri, postsovet məkanı ölkələrinin, o cümlədən Cənubi Qafqaz, Orta Asiya və Rusiyanın regional strateji maraqlarının siyasi-iqtisadi aspektləri, Qarabağ münaqişəsinin həlli, qlobal və regional enerji təhlükəsizliyi müzakirə edilib.**

Asim Mollazadə qonaqlara Azərbaycan, regional münaqişələr, ölkəmizin Avropanın və regionun enerji təhlükəsizliyindəki rolu, partiyanın fəaliyyəti barədə ətraflı məlumat verib.

Görüşdə İsrail XİN Siyasi Araşdırmalar Mərkəzinin Asiya və İqtisadi məsələlər bürosunun rəhbəri Benjamin Krasna, İsrail XİN Siyasi Araşdırmalar Mərkəzinin Avrasiya və Enerji məsələləri üzrə analitiki Vita Avrahamov, İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav və İsrail səfirliyinin missiya rəhbərinin müavini Amir Rom iştirak ediblər.

❑ **Vüqar MURAD**

"Qaya Mətbuat Yayımı" MMC!
- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Mesavat" - 0.40 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

## AŞ PA sədri İlqar Məmmədovu azad etməyə çağırdı

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) sədri Ann Brasör "Respublikaçı Alternativ" (REAL) hərəkatının sədri İlqar Məmmədovun həbsdən buraxılması üçün bir daha Azərbaycan hakimiyyətinə müraciət edib.**

Ann Brasör xatırladıb ki, Avropa Şurası Nazirlər Komitəsi ötən həftə keçirilən toplantısında Avropa Məhkəməsinin qərarlarının üzv dövlətlər tərəfindən icra vəziyyətini araşdırıb. Orada bir daha qeyd olunub ki, Azərbaycan hakimiyyəti Avropa Məhkəməsinin İlqar Məmmədovla bağlı qərarını icra eləmək istəmir.

"Cənab Məmmədov dərhal həbsdən buraxılmalıdır. Avropa Şurasının bütün əsas strukturları Azərbaycan hakimiyyətinin beynəlxalq öhdəliklərinə əməl etməsini, konkret indiki halda, tənqidçilərə, vətəndaş cəmiyyətinə qarşı repressiyaları dayandırmasını gözləyir", - deyə AŞ PA sədri vurğulayıb.

Virtualaz.org xatırladır ki, REAL Hərəkatının lideri İlqar Məmmədov 2013-cü ilin yanvarında İsmayıllıda baş vermiş iğtişaşların təşkili ilə əlaqədar 7 il müddətinə həbs olunub. Onunla birlikdə Müsavat Partiyasının sədr müavini Tofiq Yaqublu da 5 il müddətinə həbs edilib.

2014-cü ilin mayında Avropa İnsan Haqları Məhkəməsi İ.Məmmədovun həbsinin əsassız olması barədə qərar çıxarıb və onun azad edilməsinə çağırıb.

Sonradan Avropa Məhkəməsi T.Yaqublunun da barəsində analoji qərar çıxarıb.

## Bakıda ABŞ vətəndaşının meyiti tapıldı

**Azərbaycanda özəl şirkətlərdən birində aqronom vəzifəsində işləyən ABŞ vətəndaşının meyiti tapılıb.**

"Report"un xəbərinə görə, 57 yaşlı Robert Riçartsonun meyiti onun Yasamal rayonu, İnşaatçılar prospektində kirayə yaşadığı mənzildə aşkarlanıb.

Meyitin müayinəsi zamanı ABŞ vətəndaşının ürəktutmadan öldüyü məlum olub.

Faktla bağlı araşdırmalar davam etdirilir.

## ABŞ-ın müdafiə naziri İncirlik hərbi bazasında

**"Report" Türkiyə KİV-inə istinadən xəbər verir ki, nazir bazaya baş çəkməsinin səbəbləri haqda danışıb. E.Karter bildirib ki, səfərinin məqsədi amerikalı əsgərlərə mənəvi dəstək verməkdir.**

O ABŞ, Türkiyə, İspaniya və Qətərin hərbi hava qüvvələrinin nümayəndələri ilə toplantı keçirib.

ABŞ-ın müdafiə nazirinin Türkiyə rəsmiləri ilə görüş keçirəcəyi də gözlənilir.

YENİ MÜSAVAT
N 280 (6308) 16 dekabr 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Əfv ərizəsi yazmayan Əli İnsanov azad edilə bilər

## Sabiq nazirin azadlığa çıxmasına 10 ay qalıb; əfv siyahısında məşhurlar və ömürlük məhbuslar da ola bilər

**Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni illə bağlı əfv qərarının veriləcəyi barədə gəzən söz-söhbətlər günü-gündən aktuallığını artırır. Artıq əfvə düşmək şansları olan məhbuslarla bağlı işlərini həyata keçirən hüquq təşkilatları siyahılarını yekunlaşdıraraq, Əfv Komissiyasına göndəriblər.**

Siyahıda olan məhbusların kimliyi gizli saxlanılsa da, bəzi şəxslərin azadlığa çıxacağı barədə ilkin düşüncələr yaranıb. Heç şübhəsiz ki, həbsxana ilə vidalaşacağına ən böyük ümid bəslənən siyasi məhbuslardan birincisi 10 il 2 aydır məhbus həyatı yaşayan, cəzasının bitməsinə 10 ay qalan sabiq səhiyyə naziri Əli İnsanovdur. İndiyə qədər Avropa Məhkəməsinin sabiq nazirin azadlığa buraxılması üçün iki dəfə hakimiyyətə çağırış etməsi bu inamı daha da artırır. Praktikada iqtidarın bu cür çağırışlar zamanı direniş göstərdiyi hər kəsə məlumdur. Amma artıq Ə.İnsanovla bağlı nüfuzlu xarici qurumun müraciətinin üstündən uzun müddət vaxt keçib. Əfv siyahısına düşməsi üçün bütün tələblərə cavab verən sabiq nazirin qarşısında mane olacaq yeganə amil prezidentə müraciət etməməsidir. Çünki bu cür sərəncamlarda adətən ilk öncə məhbusun əfv üçün müraciət edib-etməməsi əsas götürülür. Amma indiyə qədər azsaylı olsa da, əfv



yazmadan azadlığa çıxan məhbuslar var.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı sabiq nazirin adını əfv siyahısında görəcəyinə ümid etdiyini söylədi:** "Ümid edirəm ki, nəhayət, Əli İnsanovun adını əfv siyahısında görə biləcəyik. Amma bu qərar birbaşa prezidentdən asılıdır. Əfv Komissiyası siyahıları təqdim edəndən sonra həmin siyahıdakı şəxslərdən kimlərin azad olunacağı artıq onun işidir. Amma ümid edirik ki, İşçi Qrupunun iclaslarında müzakirə olunan, siyahıda göstərdiyimiz məhbuslar azad olunacaqlar. Əli İnsanov həm xəstədir, həm də cəzasının böyük hissəsini çəkib. Son söz prezidentindir. Azərbaycan hökuməti böyük humanistlik artıq göstərib. Leyla və Arif Yunusları azadlığa buraxdırıb. Bunun sonunda yəqin ki, digərləri də çıxmalıdır. Verilən cəza müddətinə baxanda ən çox həbsxana həyatı yaşayan Əli İnsanovdur. İnanıram ki, Əli İnsanov məsələsi bu dəfə tamam qapanacaq, o, azadlığa buraxılacaq. Əgər Leyla və Arif Yunuslar azadlığa buraxılıblarsa, bu digərlərinə də şamil olunmalıdır".

Əli İnsanov 2005-ci ilin oktyabr ayında həbs olunub. O, dövlət vəsaitlərinin mənimsənilməsində, dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunaraq, 2007-ci ilin aprel ayında əmlakı müsadirə və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum olunub.

Qeyd edək ki, azadlığa çıxmaq şansları yüksək olan siyasilər kifayət qədərdir. Bu siyahıya əfv yazmamalarına baxmayaraq, Müsavat başqanının müavinləri Tofiq Yaqublu və Yadigar Sadıqov da daxildir. Belə ki, T.Yaqublu verilən cəzanın artıq 2 ilə yaxınını çəkib. Y.Sadıqovun isə azadlığa çıxmasına bir il qalıb. O, verilən 3 il yarım cəzanın 2 il 6 ayını geridə qoyub. Əfv yazmalarına baxmayaraq, hələ də həbsxanalarda olan məhbuslar var. NİDA-çı gəncləri, jurnalist Pərviz Həşimli və Hilal Məmmədovu, hüquq müdafiəçisi Rəsul Cəfərovu qeyd etmək olar. Eyni zamanda səhhətinin ağır olmasına görə əfv yazmamasına, cəzasının az bir hissəsini çəkməsinə baxmayaraq, Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin də azad edilməsi möcüzə olmaz.

Veriləcək əfv sərəncamında ömürlük həbs cəzası alan məhbuslardan da azadlığa çıxanlar ola bilər. Bu sıraya artır cəzalarının 20 ilini çəkən keçmiş OMON-çular Elçin Əmiraslanov, Arif Kazımov, Səfa Poladov, "Qarabağ partizanı" adı ilə tanınan Məmməd Məmmədov və başqalarını əlavə edə bilərik.

❑ **Cavanşir ABBASLI**

# Bizim ölkənin "Çayka"sı niyə yoxdur?

## Rusiyanın baş prokuroru oğlunun fəaliyyəti ilə bağlı yayılmış araşdırmaya geniş izahat verdi; ölkəmizdə nə üçün mətbuatın dərc etdiyi xəbərlərə reaksiya olmur?

**Fazil Mustafa:** "Bütün qurumlar şəffaf işləsəydi..."

**Zahid Oruc:** "Nazir, yaxud övladı biznes şəbəkəsində yer alacaqsa..."



**Aleksey Navalnının Korrupsiya ilə Mübarizə Fondunun Rusiyanın baş prokuroru Yuri Çaykanın oğlu Artyom Çaykanın biznesinə həsr olunmuş araşdırması bu ölkədə ciddi müzakirələrə səbəb olub. Yuri Çayka mediada geniş açıqlama ilə çıxış edib və araşdırmanı sifarişli hesab etdiyini bildirib. Çaykanın biznesi və ya korrupsiya iddiaları ilə işimiz yox. Məlumdur ki, zaman-zaman Azərbaycan KİV-lərində də yüksək ranqlı məmurlar barəsində bu tipli xəbərlər dərc olunub. Lakin indiyə qədər bu cür xəbərlər barəsində nə adı keçən nazirin, nə də aidiyyəti orqanların açıqlamasının şahidi olmamışıq. Nəticədə illər sonra Eldar Mahmudov kimi nazirlərin törətdiyi əməllər, milyonluq villalar, biznes obyektləri üzə çıxır. İki ay öncə vəzifəsindən azad edilən milli təhlükəsizlik naziri Eldar Mahmudovun bugünlərdə üzə çıxan cinayətləri, şəxsi biznesi barəsində illər öncədən mətbuatda xəbərlər tirajlanırdı. Lakin bu xəbərlərlə bağlı heç bir araşdırmalar aparılmadı. Nəticə isə göz önündədir.**

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa** da mətbuatın qaldırdığı problemlərə diqqət yetirilməməsindən şikayətləndi: "Bu xoşagələn hal deyil. Mətbuat orqanlarında, bəzən "Azərbaycan" qəzetində ayrı-ayrı məmurlar barəsində belə tənqidi məqalələr dərc olunur. Bundan nəticə çıxarılmayanda, araşdırmalar aparılmayanda Eldar Mahmudov tipli hadisələrlə üzləşirik. Kimlər neqativ işlərlə məşğul olurlarsa, dərhal buna qiymət verilməlidir. Bu məsələ həqiqətən düşündürücüdür. Reaksiyanın verilməməsi, əslinə qalsa, xəbərə olan münasibətdir. Ən azından bu barədə xidməti tədqiqat aparılmalıdır. Nəticələr üzə çıxan kimi, həmin şəxslər barəsində cinayət işi qaldırılmalıdır. Bunlar olmadığına görə bu cür hallar ölkəmizdə daha çox baş verir".

**Partiya sədri mətbuatın bu problemdə günahının olmadığını söylədi:** "Təbii ki, mediada dezinformasiya xarakterli materiallar da çoxdur. Amma bütün qurumlar şəffaf işləsəydi, mətbuat dezinformasiya bəlasından qurtulardı. Biz özümüz belə, çox informasiyaları ala bilmirik. Mətbuatı suçlamaq doğru deyil. Bütün qurumlara telefon açanda, guya zəngə cavab verən varmı? İnformasiyanı ancaq qeyri-rəsmi almağa məcbur olursan. Şəffaf olmadığına görə də bu cür problemlər yaşanır".

**İqtidaryönlü deputat Zahid Oruc gündəmə gələn problemin zaman-zaman meydana çıxdığını bildirdi:** "Hökumət təmsilçilərini biznes strukturlarından ayırmaq mümkün olmadığına görə bu problemlər meydana çıxır. Nazir, yaxud övladı biznes şəbəkəsində yer alacaqsa, o zaman bir problem meydana çıxacaq. O da maraqların toqquşması, digərlərinə təsir etmək maraqları olacaq".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, bu problemlərin kökündə hakimiyyətin bu tipli xəbərlərə cavab verməməsi amili dayanır:** "Hakimiyyət öz problemini bilir. Korrupsiya, rüşvətxorluq kifayət qədər geniş yayılıb. Sistem bunun üzərində qurulub. Bu baxımdan hakimiyyət ciddi xəbərlərə, müraciətlərə reaksiya vermək istəmir. Çünki arxasında ciddi problemlər durur. Düşünürlər ki, media qarşısında hesabatlı ola bilərlər. Bu şəraiti isə yaratmaq istəmirlər. Bir faktı qeyd edim ki, bir ay olar Hacıbala Abutalıbovun 750 hektar torpaq ayırması ilə bağlı yazım dərc olunub. Əksər qurumlara müraciət etdim, amma hələ də heç birindən cavab gəlməyib. Oktyabr ayından müraciətlərə başlamışam, hələ də cavab ala bilməmişəm. İndi necə işləyim? Dövlət qurumları media orqanlarında gedən xəbərlərə münasibət bildirməkdə maraqlı deyillər. Çünki bəzi yazılar məmurların şəxsi maraqlarına toxunur. Başqa bir səbəb görmürəm".

❑ **Cavanşir ABBASLI**

# Nardaranda saxlanılanlardan xəbər yoxdur

## Kənddə təmir-bərpa işləri aparılır

**Dekabrın 1-dən Nardaran Daxili Qoşunların və polisin nəzarətindədir. Nardarana kənd sakinlərindən başqa heç kim buraxılmır. Hazırda kənddə "Azərişıq", "Azərsu", "Azəriqaz" və "Azəryolservis"in briqadaları çalışır. Kənddə elektrik enerjisinin, təbii qazın və suyun verilməsi istiqamətində işlər görülür. Kənd yolları genişləndirilir.**



Kənd sakinlərinin narazılığı əməliyyatlar zamanı saxlanılanlar haqda rəsmi məlumatın verilməməsidir. Dekabrın 1-dən kənddə keçirilən əməliyyatlar zamanı saxlanılanlardan xəbər yoxdur. Saxlanılanların sayı haqda sonuncu rəsmi açıqlama daxili işlər naziri Ramil Usubov tərəfindən verilmişdi. R.Usubov saxlanılanların 32 nəfər olduğunu bildirmişdi. Bundan sonra kənddə növbəti əməliyyatlar da həyata keçirilib və saxlanılanların sayı artıb.

Əməliyyatlar zamanı saxlanılanların kimliyi və harada olması haqda rəsmi məlumat almaq cəhdlərimiz nəticəsiz qaldı. Bu barədə heç bir rəsmi orqan məlumat vermir.

Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimov müsavat.com-a açıqlamasında bildirdi ki, kənd sakinlərinin bu məsələ ilə bağlı narazılığını nəzərə alaraq Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsman) müraciət ediblər.

**N.Kərimov müraciətdə ombudsmandan saxlanılanların ailəsinə rəsmi orqanlar tərəfindən dəqiq məlumat verilməsi üçün köməklik etməsini istədiklərini qeyd edib:** "Kənddə saxlanılanların aqibətindən heç kimin xəbəri yoxdur. Ailə üzvləri narahatdır. Onlar həbs edilibsə, ən azından harada olmaları haqda ailələrinə məlumat verilməlidir".

"İnanırıq ki, vətəndaşlarımızın taleyindən biganə qalmayacaq, günahsız insanların hüquqlarının bərpa olunmasını, ən azı saxlanılan insanların bugünkü taleyindən ailələrinə xəbərdar olunmasını təmin edəcəksiniz"- deyə, ombudsmana ünavanlanan müraciətdə qeyd edilib.

N.Kərimov əməliyyatlar zamanı saxlanılanların sayının təxminən 70-dən çox olduğunu söylədi.

**Kənddəki son vəziyyətlə bağlı danışan N.Kərimov bildirdi ki, hazırda kəndin abadlaşdırılması, qəsəbədəki sosial-mədəni infrastrukturun yenilənməsi və qəsəbənin sosial problemlərinin həlli məqsədi ilə işlər görülür:** "Evlərin əksəriyyətinə işıq verilib. Təbii qazın verilməsinə də başlanılıb. Yolları genişləndirirlər. Polis üçün bina da tikirlər. Artıq xeyli iş görülüb. 130 nömrəli məktəbdə təbii qaz olmadığından sinif otaqları soyuqdur. Yəqin ki, bu məsələ də tezliklə həll olunar. Yeganə narazılıq saxlanılanlar haqda məlumatımızın olmamasıdır".

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 280 (6308) 16 dekabr 2015

# “Tahir Kərimli tövbə elədi, düzəldi, hətta deputat oldu”

## Hacı Əbdüldən Ayaz Mütəllibova etiraz: “Elçibəy sadə adam idi, məgər adam sadə olanda, sadəlövh olur?...”

**Bir neçə ay əvvəl qəzetimizə müsahibəsində “Şeyx getməlidir” deyib Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Hacı Allahşükür Paşazadəni kəskin tənqid etmişdi. Ancaq ötən həftə onu tədbirdə şeyxlə birgə gördük. Elə söhbətimizə də bu məsələdən başladıq. Müsahibimiz “İmam Hüseyn” məscidinin axundu, “Tövbə” Cəmiyyətinin sədri Hacı Əbdüldür.**



*- Hacı, deyəsən, şeyxlə barışmısınız...*

- Mən ondan heç vaxt küsməmişəm. Haqqı demək küsmək deyil.

*- Şeyx necə, haqqı dediyinizə görə sizdən küsmüşdümü?*

- Vallah onu bilmirdim. Amma hərdən əlaqələrimiz olurdu. O gün “Heydər” məscidinin açılışı idi, biz də məscidin axundu kimi ora dəvət olunmuşduq, yüngülvari görüşdük.

*- Görüşəndə ötənlərə görə zarafatlaşmadınız ki?*

- Yox, mənim şeyxlə zarafatım yoxdur. Özü də bilir ki, heç kəsə qərəzim yoxdur.

*- Təkliflər səsləndi ki, QMİ ləğv olunmalıdır, siz də “Şeyx getməlidir” demişdiniz. İndi nə fikirdəsiniz?*

- QMİ şeyxin adına bağlı deyil. Onun ləğvi əlbəttə ki, yaxşı əlamət olmaz. Mən bu təklifin əleyhinəyəm. Çünki bütün Qafqaz müsəlmanlarını əhatə edən qurumdur.

*- Heç Şeyxülislam olmaq ürəyinizdən keçib?*

- Düzünü desəm, yox. Haqqa gələndə şeyxlik mənlik deyil. Çox ağır işdir. Şeyx dözür də... Çünki ustalaşıb.

*- Yeni qanuna əsasən, xaricdə təhsil alanlar artıq dini mərasimləri idarə edə bilməyəcək. Bu qərara necə baxırsınız?*

- Şəxsən mən burda, İslam Universitetində təhsil almışam, qanun mənə aid deyil. Amma bu qanunu yaxşı qarşılamadım. Onun yaxşı tərəfi də var, pis tərəfi də. Əməli, işi yaxşı deyilsə, təbii ki, həmin adamlara qadağa qoymaq lazımdır. Amma xalqa, millətə, dinə xidmət edirsə, niyə məclis aparmamalıdır? Hər kəsin getdiyi yol məlumdur. Görürsən yoldan çıxır, cəzalandır. Gözümüzün qabağında MTN-də görün nələr oldu. Ora etibarlı yer idi, orda belə hadisələr baş verdisə, başqa yerlər təəccüblü deyil. MTN-də ifşa olunan dəstə ki, Nəcəfdə, Qumda, ya Suriyada, Səudiyyə Ərəbistanında təhsil almamışdı. Ancaq dövlətə xəyanət edənlərin, İŞİD-ə qoşulanların vətəndaşlıqdan məhrum edilməsini dəstəkləyirəm.

*- Nardaranda baş verənlər sizinçün gözlənilməz olmadı ki?*

- Gözləmirdim. Nə qanlı, nə qansız hadisəni... Nardaran hadisələri çoxşaxəlidir e...

*- Hardan qaynaqlanır?*

- Hər yerdən. Bir dənə İrana bağlayasan, ya MTN-ə bağlayasan, bu, düzgün olmaz. Yəni hamısının orda kəşfiyyatı var. Hər kəs lazım gələndə qızışdırır və arada məzlum camaat əziyyət çəkir.

*- Hacı Taleni tanıyırdınız?*

- Yox, heç görməmişəm.

*- Necə bilirsiniz, Nardarandakı ocağı birdəfəlik sönmüş saymaq olarmı?*

- Əlbəttə, dövlətin kasıb kəndlərə yardımı olmalıdır. Nardaran bir o qədər də varlı kənd deyil. Kənd dənizin hesabına dolanırdı. Dənizi əllərindən aldılar, camaat müflisləşdi. Dənizi almısansa, başqa şey verməlisən də. Vermədilər. Fabrik yox, böyük heyvandarlıq kompleksləri, əkinçilik yox, bu kənd nə ilə dolansın? Tək ora deyil ki, Azərbaycanın istənilən məntəqəsində eyni vəziyyət yarana bilər. Vəhabilər hardan əmələ gəldi? Hamısı Səudiyyə Ərəbistanının maliyyəsidir də.

### “MTN-də ifşa olunan dəstə ki, Nəcəfdə, Qumda, ya Suriyada, Səudiyyə Ərəbistanında təhsil almamışdı”

*- Ölkədə hətta sünni-şiə qarşıdurması yaratmaq istəyən qüvvələr ola bilərmi?*

- Hər kəs ki, Azərbaycanda sünni-şiə qarşıdurması yaratmaq fikrindədir, bilsin ki, bu, boş xəyaldır. Azərbaycanda heç vaxt sünni-şiə problemi olmayıb. Amma vəhabi təhlükəsi var, onlardan özümüzü gözləməliyik, hələ 50 il bundan qabaq demişəm. Vəhabilər hətta özlərini sünni kimi qələmə verirlər ki, sünni və şiələr arasında nəsə yaratsınlar, amma boş şeydir.

*- Keçmiş dostunuz Ayaz Mütəllibovla münasibətləriniz nə yerdədir?*

- Ayaz Mütəllibovla bizim əlaqələrimiz çoxdan kəsilib.

*- Əbülfəz Elçibəylə bağlı onun dediklərinə sizin münasibətiniz maraqlıdır. Yəqin oxumusunuz...*

- Oxumuşam. Əvvəla, Əfülfəz bəy haqqında heç prezident olmasa da, bunu demək olar ki, yaxşı adam idi. Mən onu tanıyırdım, hələ meydan hadisələrindən də əvvəl. Meydan hadisələrində bir yerdə olmuşuq, lap yaxşı tanımışam. Yəni “primitiv” sözü ona yaraşmır. Heç “sadəlövh” də demək olmaz. Sadə adam idi. Məgər adam sadə olanda, sadəlövh olur? Səfehə sadəlövh demək olar. Elçibəy sadə adam idi, kiçiklə kiçik idi, böyüklə böyük, bu da insanın böyüklüyünü göstərir. Səmimi insan idi. Bir dəfə parlamentdə çıxış etdi, bayrağımızı Çinə, nə bilim Təbrizə sancmağımızdan, türkçülükdən, Türk dünyasından danışdı. Onda mən durub çıxış etdim, dedim, a kişi, biz bayrağımızı burdan-bura Qarabağa sanca bilmirik, sən bu ölkələri bizimlə niyə düşmən edirsən? İclasdan sonra gəlib mənimlə görüşdü, dedi, Hacı, sənin səmimi danışığını qəbul edirəm. Deməyə də bilərdi, amma gəldi, səmimi şəkildə dedi. Belə adam haqqında Ayaz Mütəllibovun elə sözlər deməsi ona yaraşmaz. Münasibətim olmasa da, fikrimi qəzetiniz vasitəsilə çatdırıram. Əbülfəz Elçibəy prezident idi. Prezidentin prezident haqqında belə çıxışlar eləməsi heç yaxşı hal deyil. Tarixdə belə bir hadisə olub: padşah vəziri dar ağacına çəkdirir. Dar ağacında vəzir çox qəmgin dayanır. Padşah qəmgin olmağının səbəbini soruşur. Vəzir deyir, siz tarixdə olmayan bir toxum əkirsiniz, heç vaxt vəziri dar ağacından asmayıblar. İndi prezidentin prezident haqqında belə sözlər deməsi pis toxumlardır. Səhvlər deyilə bilər, haqqı demək yaxşı şeydir, illər keçsə də deyilməlidir ki, başqaları ibrət alsın. Ancaq təhqir etmək olmaz.

***

**Bundan sonra Hacı Əbdüllə məscid, tövbə məsələlərindən danışdıq.**

- Bizim məscidimizin canı tövbədədir. Əsas məqsədimiz gəncləri tövbəyə dəvət etməkdir. Peyğəmbərimiz (s) buyurur ki, bir nəfəri düz yola gətirmək bir nəsli düz yola gətirməkdir.

*- İndiyədək nə qədər adam tövbəyə gəlib?*

- Allaha and olsun, heç sayını demək olmaz. Hər ay ən azı 15-20 nəfər gəlir.

*- Ən çox nəyə görə tövbəyə gəlirlər?*

- Daha çox narkotiklə bağlıdır. Narkomaniya çox geniş yayılıb, əsas da cavanlardır, hətta qadınlar, qızlar arasında geniş yayılıb...

*- Gəlib tövbə edirlər. Sonra tövbəni pozub təkrar gələnlər olurmu?*

- Bəli, təkrar da gəlirlər. Bu, elə bir xəstəlikdir ki, gəlməməsi mümkün deyil.



### “Qafqaz Müsəlmanları İdarəsinin ləğvinin əleyhinəyəm”

*- Narkomaniya hətta müalicə ilə keçmir, tövbə ilə necə keçir?*

- Yox, tövbə ilə keçir. Tövbənin əsas gücü Allaha bağlıdır. Allahdan qorxu, ona məhəbbət çox şeyi həll edir.

*- Tanınmış adamların övladları da gəlirlər?*

- Olub da, var da. Amma ad çəkmək istəmirəm.

**“İmam Hüseyn” məscidinin tarixi qədimdir, 1889-cu ildə tikilib, hətta “Təzəpir”dən də əvvəl. Sovet dövründə fəaliyyəti dayandırılan məscidi sonralar elektrik sobalarının istehsalı ilə məşğul olan zavoda çeviriblər. Hətta sütunlara bərkidilmiş dəmir körpülər sonradan kəsilib və indiyə qədər nişanələri qalır. Bir də “İmam Hüseyn” məscidi milli-azadlıq hərəkatı illərində qapılarını dindarların üzünə açıb.**

**Hacı Əbdül deyir ki, məscidin həyətində zavoda məxsus tikililər olub, sonradan onları sökdürüb kənara atdırıb ki, möminlər rahat ibadət eləsin. Lakin son illərdə məscidin qarşısında tikilən “göydələnlər” dini ibadətgahın dənizə mənzərəsini qapadıb və küncə sıxışdırılmış vəziyyətə salıb. Ancaq hazırda ən ciddi problem “İmam Hüseyn” məscidinin uçub-dağılmaq üzrə olması ilə bağlıdır. Bunları Hacı Əbdül deyir və əlavə edir:**

- İndiyə qədər buranın təmirinə nə dövlət, nə QMİ tərəfindən heç birköməklik olmayıb, özümüz eləmişik, istilik sistemi çəkdirmişik. Hətta rəsmi müraciətlər etmişik ayrı-ayrı qurumlara, göndərdilər icra hakimiyyətinə, bir nəticə olmadı.

*- Amma nəzir qutuları var və yəqin ki, nəzir yığılır. Bu vəsaitin hesabatını verirsinizmi?*

- Nə vəsait var ki, hesabat da verək? Millət kasıbdır. Tək indi deyil, əvvəldən beləydi vəziyyət.

*- Heç buranı xarici ölkələrdəki məscidlərlə müqayisə edirsinizmi?*

- Çox məscidlər görmüşəm. Amma mənimçün ən rahatı buradır. Burda olan ab-hava heç bir məsciddə yoxdur. Ancaq yeganə istəyimiz odur ki, dövlətimiz məscidin təmirinə kömək etsin. Dövlət hələlik bura nəzər salmayıb. 5-10 gün bundan qabaq damını sökdük, yağış suları içərini götürmüşdü. Suvağı uçub-tökülür... Bu, tarixi abidədir. Özü də “Heydər” məscidinin bu məscidə oxşarlığı çoxdur. Elə bil ki, layihəni bu məsciddən götürüblər. Bizim dövlətimiz xaricdəki kilsələr, məscidlərlə bağlı xeyriyyə işləri görür. Bunu görəndə adam sevinir ki, dövlət özünü dünyaya tanıtdırır. Ancaq digər tərəfdən də adamda qısqanclıq əmələ gəlir ki, məscidimiz dağılır, heç olmasa bizə də bir az yardım edin.

*- Sizə də qazı pulsuz verirlər?*

- Müəyyən qədəri pulsuzdur. Gərək məscidlərdə qaz pulsuz olsun. Bizim məsciddə qaz ancaq qışda işlənir, istilik sistemində. Rusiyanın özündə kilsələrə qaz pulsuzdur.

***

**Sonbeşik övladı 5 yaşında olan Hacı Əbdül ömrünün 76-cı ilində idmanından qalmır. Həyətdə özünün idman zalı var, trenajorda davamlı məşq edir.**

*- Övladlarınızdan sizin yolunuzu davam etdirən varmı?*

- Sonbeşik idmanla məşğul olur. Zalda məşq edir (gülür)

### Tövbə mərasimi...

**Və... Tövbə məqamı gəlir. Daha doğrusu, ailə qurmağa hazırlaşan cütlüyün tövbə edib kəbin kəsdirməsi mərasimi başlayır. Əllərini Qurani-Kərimin üzərinə qoyan gənclər axundun dediyi kəlamları təkrarlayırlar:** “And içirəm: ömrüm boyu Sənin halal buyurduqlarını halal biləcəyəm, haram buyurduqlarını haram biləcəyəm. Bu gündən ömrümün sonuna qədər heç bir vaxt, heç cür narkotik maddə qəbul etməyəcəyəm. Heç cür spirtli içki içməyəcəyəm, donuz əti yeməyəcəyəm. İslam bayrağını daima uca tutacağam, İslama, Vətənə, xalqa, ”Tövbə" Cəmiyyətinə heç bir vaxt xəyanət etməyəcəyəm. Söz verirəm ki, bu gündən ömrümün sonuna qədər bir-birimizə sadiq olub ailədə möhkəm olacağam. Amin, ya Rəbbilaləmin!"

**Gənclər tövbədən sonra Quranı götürüb öpərək gözlərinin üstündə qoyurlar. Sonra isə gəncləri təbrik edərək Hacı Əbdül müqəddəs kitabı onlara bağışlayır:** “Bu Quranı aparıb qoyursunuz evdə, gözünüzün qabağında, hər gün gözünüzlə görürsünüz”.

Hacı Əbdüldən şallaq barədə soruşuram. **“Şallaq tövbəsini pozanlar üçündür, bunlar ilk dəfədir gəlir” deyir. Sonra köməkçisi kəbin kağızını da yazır və şahidlərin iştirakı ilə onlara təqdim edir, biz də təbriklərə qoşuluruq. Kəbin kağızında oğlanın həyat yoldaşına 21 qram qızıl hədiyyə verməsi barədə “öhdəlik” də əksini tapır və qəti xəbərdarlıq:** “Əgər narazısan, az yazım. Amma bu 21 qram ödənilməsə, qiyamətə qədər cavab verəcəksən!” Oğlanın topdansatış mərkəzində işlədiyi məlum olandan sonra elə 21 qram yazılır...

**Yarızarafat “Hacı, bəlkə hər ehtimala qarşı bəy oğlana qamçını göstərəsiniz, tövbəni pozmaq fikrinə düşməsin” dedikdən sonra Hacı Əbdül o biri otaqdan illərdir onda olan, məxsusi hazırlanmış məşhur qamçısını gətizdirir, fotosunu çəkirik. Hacı Əbdül deyir ki, bu şallağın faydasını görənlər də olub:** “Tahir Kərimli tövbə elədi, düzəldi, hətta deputat oldu”. (gülürük)

❑ Elşad PAŞASOY
FOTO: “YM”

**Dekabrın 17-də sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun tutduğu postdan uzaqlaşdırılmasının 2 ayı tamam olur. Eldar Mahmudov hazırda Bilgəhdə, məhz onun qanunsuzluqları üzündən ləğv olunan nazirliyin sanatoriyasında qalmaqda davam edir. Eldar Mahmudovu həmin sanatoriyaya işdən qovulandan az sonra yerləşdiriblər.**

# “MTN işi”nin iki ayı tamam oldu

## Hələ də azadlıqda olan Eldar Mahmudovun yaxın günlərdə qandallanacağı gözlənilir




Dəbdəbəni sevən, general lompaslarında poz verməyi xoşlayan E.Mahmudovu Badamdardakı dəbdəbəli villasından çıxarıb dindirməyə aparmaq istəyiblər, amma ürək krizi keçirməsi üzündən apara bilməyiblər. Hazırda müalicə olunan E.Mahmudovun yaxın günlərdə həbsə alınacağı xəbəri də var.

Sabiq nazir və komandası dövlət təhlükəsizliyini zərbə altında qoymaqdan tutmuş, quldurluq, soyğunçuluq, iş adamlarına qarşı qanunsuz tələb etmə kimi ağır ittihamlarla üz-üzədir. Bu gün Eldar Mahmudov ev dustağıdır. Ləğv olunmuş nazirliyin bir qrup yüksək rütbəli əməkdaşları, general-mayor Teymur Quliyev, Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev, MTN-in Monitorinq Mərkəzinin əməkdaşı Natəvan Mürvətova, idarə rəsi Sübair Qurbanov, general-mayor Akif Çovdarov və digərləri həbsdədirlər. Bu adamları uzun müddətdən bəri Azərbaycanda iş adamlarına qarşı xüsusi qurğular qurmaqla cinayətlər törədiblər. Onlar bu yolla milyonlara sahib olublar, ölkənin iqtisadi sahədə dirçəlməsini təmin etməli orta sahibkarlığın başına açılan oyunların əsas iştirakçılarına çevrilmişdilər. İş o yerə çatmışdı ki, MTN dövlətə qarşı təhlükələri önləmək, qarşısını almaq əvəzinə özü təhlükə mənbəyinə çevrilmişdi.

Dekabrın 14-də prezident MTN-in əsasında Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqda fərman imzalayıb.

Prezidentin imzaladığı sərəncamlara əsasən, Milli Təhlükəsizlik Nazirliyinin əsasında yaradılan Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsinə Mədət Quliyev, Xarici Kəşfiyyat Xidmətinin rəisi vəzifəsinə isə Orxan Sultanov təyin ediliblər.

### MTN-in İstintaq Təcridxanası ləğv olunur?

Faktiki olaraq bu fərman MTN-i arxivlik etdi. Bəs Eldar Mahmudovun şəxsi divanxanasına çevrilmiş, qanunda nəzərdə tutulmayan, on illərlə fəaliyyət göstərmiş MTN-in İstintaq Təcridxanasının aqibəti necə olacaq?

Bu məsələ illərdir ki, müzakirə mövzusudur. Mərhum vəkil İsaxan Aşurov başda olmaqla, bir çox tanınmışlar, zaman-zaman bu məsələni qaldırıb çözülməsini istəmişdilər. Hətta 2009-cu ildə BMT İnsan Haqları Komitəsi “Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanası ya ləğv edilməli, ya da Ədliyyə Nazirliyinə verilməlidir” tövsiyəsi ilə Azərbaycan hökumətinə müraciət də etmişdi.

**10 aya yaxın MTN-in təcridxanasında saxlanan keçmiş müdafiə naziri Rəhim Qazıyev demişdi ki, təcridxanada işgəncə otaqları var:** “Mühafizəçilərdən biri mənə bir otaq göstərdi. Həmin otağın bütün divarlarına yumşaq materiallar çəkilmişdi. Orada nə qədər çağırsan, səsin eşidilməz. Nəzarətçi dedi ki, bu, işgəncə otağıdır”.

**BMT-dəki müzakirələrdə iştirak etmiş hüquq müdafiəçisi Sahib Məmmədov mətbuata açıqlamasında demişdi ki, oxşar tövsiyələr onların hazırladığı alternativ hesabatda da öz əksini tapıb.** “Azərbaycandakı cəzaçəkmə yerləri 6 nazirliyin tabeçiliyindədir. Söhbət təkcə istintaq təcridxanalarından yox, həm də bütün cəzaçəkmə yerlərindən gedir. Biz də təklif edirdik ki, bütün bunların hamısı bir nazirliyin tabeçiliyinə verilsin”.

Hüquq müdafiəçisi demişdi ki, bütün cəzaçəkmə yerləri və təcridxanalar bir nazirliyin tabeçiliyinə verilərsə, cəmiyyətin onlara nəzarət etmək imkanı daha effektli ola bilər. BMT-dəki müzakirələr zamanı MTN-in nümayəndəsi də bildirmişdi ki, hökumət bu məsələyə gələcəkdə baxmağa hazırdır. Amma son ana qədər, qurum ləğv olunana kimi MTN təcridxanası ləğv edilmədi, qanunsuz fəaliyyət göstərən təcridxanada qanunsuz olaraq yüzlərlə şəxs sənədsiz-sübutsuz saxlanılıb mal-mülkü əlindən alındı.

Artıq MTN yoxdur, onun qanundankənar istintaq təcridxanası, oradakı işgəncə otaqları isə qalır.

Bu gün reputasiyası yerlə bir olan MTN iki müstəqil xidmətə ayrılıb. Eldar Mahmudov və onun general bandası MTN-in adını sözün həqiqi mənasında batırmışdılar. Bunda onların yardımçısı həmin qanundan kənar təcridxanada mühüm rol almışdı. Bu baxımdan məsələyə yenidən baxılması da zəruridir...

### Eldar Mahmudovun qohumlarına “stop” qoyulub

Ötən saylarımızdan birində Eldar Mahmudovun əsas “işverən”i hesab olunan “Akula” ləqəbli Akif Mustafayevin ölkədən qaçması haqda məlumat vermişdik. Redaksiyamıza daxil olan məlumatda bildirilirdi ki, A.Mustafayev oktyabrın 17-də E.Mahmudovun işdən çıxarılması haqda məlumatı alandan sonra ölkədən qaçmaq üçün hazırlıqlara başlayıb. Oktyabrın 18-də isə ölkədən qaçmağa müvəffəq olub. A.Mustafayev hazırda İnterpol xətti ilə axtarışdadır. “Akula”nın təcrübəsini Eldar Mahmudovun ətrafında olan, kef-damaq məclislərində yanında olmuş qohum-tanışlarının təkrar etməməsi üçün onların ölkədən çıxışına “stop” qoyulub. Redaksiyamıza daxil olan məlumata görə, bir neçə gün əvvəl E.Mahmudovun qohumlarından biri “Qırmızı körpü” sərhəd-keçid məntəqəsi vasitəsilə ölkəni tərk etmək istəyib. Lakin ona deyiblər ki, adı qarşısında “stop” var və geri dönməlidir. Vaxtilə ictimai fəallara “stop” qoyduran E.Mahmudovun özünün ətrafı bu gün həmin vəziyyətlə üz-üzədir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Azərbaycan dilinə görə də sərt cərimələr gəlir

## İnzibati Xətalar Məcəlləsinin layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub




**Azərbaycanda statistik sirrin yayılması və mətbuatda dərc olunmasına görə cərimələr böyük məbləğdə artırılır. Bununla bağlı məsələ yeni hazırlanan İnzibati Xətalar Məcəlləsində əksini tapıb. Məcəllə layihəsinin 389-cu maddəsinə əsasən, statistik sirrin yayılmasına, yəni hüquqi şəxslərin (onların nümayəndəlik və filiallarının) və ya fiziki şəxslərin razılığı olmadan, onlar haqqında məlumatların bu məlumatlardan istifadə etməyə hüququ olmayan dövlət orqanlarına, müəssisələrə, təşkilatlara, yaxud fiziki şəxslərə verilməsinə görə fiziki şəxslər 100 manatdan 200 manatadək (hazırda 15 AZN-dən 25 AZN-dək), vəzifəli şəxslər 500 manat (hazırda 35 AZN-dən 50 AZN-dək), hüquqi şəxslər isə 1 000 manatdan 2 500 manatadək miqdarda cərimə ediləcəklər. “Report.az”ın məlumatına görə, bundan başqa, statistik sirrin mətbuatda dərc olunmaqla yayılmasına görə fiziki şəxslərin 200 manatdan 300 manatadək (hazırda 30 AZN-dən 40 AZN-dək), vəzifəli şəxslərin 500 manatdan 700 manatadək (hazırda 70 AZN-dən 90 AZN-dək), hüquqi şəxslərin isə 2 000 manatdan 3 500 manatadək miqdarda cərimə edilməsi nəzərdə tutulub.**

Azərbaycanda dövlət dilində danışmağa mane olanlar, bu dilin istifadəsini məhdudlaşdıranlara qarşı yeni cəzalar tətbiq olunacaq. (APA). Bu məsələ də yeni İnzibati Xətalar Məcəlləsində təsbit olunub. Məcəllənin 532-ci maddəsinə əsasən “Azərbaycan Respublikasında dövlət dilinə qarşı təbliğat aparılması, Azərbaycan dilinin işlənməsinə və inkişafına müqavimət göstərilməsi, onun istifadə sahəsinin məhdudlaşdırılmasına cəhd edilməsi, habelə Azərbaycan dilinin latın əlifbasının tətbiq olunmasına maneələr törədilməsinə görə fiziki şəxslər 1 000 manatdan 1 500 manata qədər, vəzifəli şəxslər 2 500 manatdan 4 000 manata qədər, hüquqi şəxslər isə 12 000 manatdan 16 000 manata qədər cərimələnəcəklər. Hazırda qüvvədə olan məcəllədəki müvafiq maddəyə görə isə bu cərimələr fiziki şəxslər üçün 20 manatdan 40 manata qədər, vəzifəli şəxslər 50 manatdan 90 manata qədər, hüquqi şəxslər üçün isə 150 manatdan 300 manata qədərdir. Azərbaycan prezidenti tərəfindən təqdim olunan yeni İnzibati Xətalar Məcəlləsi Milli Məclisin plenar iclasına tövsiyə olunub və növbəti iclasda müzakirəyə çıxarılacaq. Məcəllə qəbul olunacağı təqdirdə, 2016-cı il mayın 1-dən qüvvəyə minəcək.

İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan dəyişikliklə məişət səs-küyünə qarşı mübarizə qaydalarının pozulmasına görə cərimələr də artırılacaq. Məcəllə Milli Məclisdə qəbul edilərsə, məişət səs-küyünə qarşı mübarizə tələblərini pozan fiziki şəxslər 300 manatdan 400 manatadək, vəzifəli şəxslər 2 500 manatdan 3 500 manatadək cərimə ediləcəklər. Qaydalar gecə saat 12-dən səhər saat 7-dək olan müddəti əhatə edir.

❑ **Cavid TURAN**

# XİN Akif Nağıya qadağa qoyulmasına münasibət bildirdi

## Hikmət Hacıyev: “Qeyd olunan məsələ Gürcüstan tərəfi ilə bir daha müzakirə olunacaq”

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı ilə bağlı qurumun Azərbaycan XİN-ə müraciəti barədə xəbər vermişdik. Qeyd edək ki, müraciətdə təşkilat sədrinin Gürcüstana buraxılmaması ilə bağlı Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovdan yardım istənilib. Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin 21-22 dekabr görüşü ərəfəsində ünvanlanan müraciətdə bildirilir ki, bu qadağa təşkilatın işinə mane olur. “Bu qərar təkcə Qarabağ Azadlıq Təşkilatına qarşı yönəlməyib, həm də Azərbaycan dövlətinə, xalqına qarşı hörmətsizlik kimi qiymətləndirilə bilər. Biz ilyarımdan çoxdur ki, bu anlaşılmaz qərara dözür, iki ölkə arasında münasibətlərə gərginlik gətirmək istəmirik. Amma məsələ yaxın vaxtlarda həllini tapmasa, biz kəskin addımlar ata, məsələn, Gürcüstan rəhbərliyinə daxil olan rəsmiləri, prezidenti, baş naziri, xarici işlər nazirini, müdafiə nazirini arzuolunmaz şəxs elan edə, onların Azərbaycana səfərlərini etiraz aksiyaları ilə qarşılaya və digər tədbirlərə əl ata bilərik” deyə, müraciət müəllifləri bildirib.**

QAT-ın müraciəti ilə bağlı Xarici İşlər Nazirliyindən “Yeni Müsavat”a münasibət açıqlanıb. XİN-in mətbuat katibi Hikmət Hacıyev sorğumuza cavab olaraq bunları bildirdi: “Azərbaycan Respublikası vətəndaşı Akif Nağının media vasitəsilə XİN-ə ünvanlanmış açıq müraciəti ilə tanış olduq. Bildiyiniz kimi, hər bir ölkənin qanunvericiliyinə uyğun olaraq öz ərazisinə giriş-çıxış rejimini tənzimləmək onun suveren hüququdur. Azərbaycan Respublikası təcrübəsində də bir sıra xarici ölkələrin vətəndaşlarının Azərbaycan ərazisinə girişinə qadağa qoyulub. Məsələn, işğal olunmuş ərazilərimizə qeyri-qanuni səfər edən əcnəbi vətəndaşların Azərbaycan ərazisinə girişini qadağan edən "arzuolunmaz şəxslər siyahısı" tərtib edilir. Amma qeyd olunan məsələ Gürcüstan tərəfi ilə bir daha müzakirə olunacaq".

❑ **ELŞAD**

YENİ MÜSAVAT
N 280 (6308) 16 dekabr 2015



# Sərdar Cəlaloğlundan şeyxlə bağlı yeni ilginc açıqlamalar

## “Düşmənçiliyim olsa, onun həyatı və fəaliyyəti ilə bağlı elə faktlar deyərəm ki, Azərbaycanda heç bir müsəlman, Allahı tanıyan adam onu qəbul eləməz”

**ADP sədri Sərdar Cəlaloğlunun bir həftə öncə “Yeni Müsavat”a açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin ləğvinin vacibliyini bəyan etməsi cəmiyyətdə ciddi müzakirələrə yol açıb. S.Cəlaloğlunu haqlı hesab eləyənlər də, QMİ-nin Azərbaycan dövlətinə lazım olduğunu, bu qurumun ləğvi tələbinin təxribatçı hərəkət olduğunu düşünənlər də var. Məsələn, hakim YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov QMİ-nin ləğvini istəyənləri təxribatçı adlandırıb.**

**Sərdar Cəlaloğlu** “Yeni Müsavat”a bildirdi ki, Şeyx Allahşükür Paşazadənin şəxsinə qarşı heç bir qərəzi və düşmənçiliyi yoxdur: “Təkcə prokurorluq QMİ-nin maliyyə işlərini yoxlasa ortaya çıxar ki, nələr var. Düşmənçiliyim olsa, o faktları mətbuata açıqlayaram və Azərbaycanda Allaha inanan heç kəs şeyxə inanmaz. Sadəcə, demişəm və deyirəm ki, bir adam ticarətlə məşğul olursa, dinlə məşğul olmamalıdır, dinlə, elmlə məşğul olursa ticarətlə məşğul olmamalıdır. Bu fikir niyə düşmənçilik və ya təxribat kimi qələmə verilməlidir? Şeyx öz çıxışlarının birində demişdi ki, mən 30 ildir vicdanın nə olduğunu bilmirəm. Vicdan özü din deməkdir, dində olmaq deməkdir. Deməli, şeyx özü etiraf edir ki, mən dində olmağın nə demək olduğunu bilmirəm. Bunu mən ona böhtan atmıram. Adam öz dili ilə deyir ki, mən 30 ildir bilmirəm vicdan nə olan şeydir. O, ümumiyyətlə, cümə namazı-filan da qılıb eləmir. Bir çox hallarda heç bayram namazlarına da gəlmir. Çox nadir hallarda namazda olur”.

**S.Cəlaloğlu QMİ və şeyxlə bağlı mövqeyinə görə heç kimdən qorxmadığını da vurğuladı:** “Allahdan qorxan adam heç nədən qorxmaz. Allahdan qorxmayan adam hər şeydən qorxar. Mən Allahdan qorxuram, ona görə də xalqım və dövlətim üçün xeyirli olan hər bir məsələnin üzərinə getməkdən qorxmuram. Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan Konstitusiyasına ziddir. Azərbaycan Konstitusiyasına görə, Azərbaycanda yalnız Azərbaycan vətəndaşlarının üzvü olduğu təşkilatlar yaradıla və fəaliyyət göstərə bilər. Qafqaz Müsəlmanları İdarəsi isə adından da görünür ki, Azərbaycanın vətəndaşı olmayan digər Qafqaz xalqlarının da təşkilatıdır. Belə çıxır ki, məsələn, Dağıstanda olan çeçenlərin də hansısa dini sahədə hərəkətinə görə məsuliyyəti Allahşükür Paşazadə daşıyır. Halbuki Allahşükür Paşazadənin Rusiya vətəndaşları üzərində hər bir təsiri, hər hansı bir ideoloji iş aparması Rusiya qanunlarına görə də, Azərbaycanın qanunlarına görə də qadağandır. Qafqaz Müsəlmanları İdarəsi qeyri-hökumət təşkilatıdır. Necə olur ki, Azərbaycanda heç bir QHT dövlət protokolunda yer tutmur, amma QMİ dövlət protokolunda rəsmi yer tutur, bir çox hallarda hətta parlament sədrindən də qabaqda durur? Bu vəziyyətin özü anormal durumdur. İslam dinində icma prinsipi var. 20-30 nəfər yığışıb bir məscid tikir və öz aralarında ən çox inandıqları adamı önə verirlər və həmin adam pişnamaz olur. İslamın ümumi məsələlərinə gəlincə, Quranda da deyilir ki, gərək sizin öz aranızdan alimlər çıxsın və Qurandakı mürəkkəb məsələləri xalqa izah eləsin. Həmin şəxslər isə Quranda şeyx adlanmır, alim adlanır. Həmin alimlər Quranla yanaşı, elmləri də bilməlidir. Mən hazırda Qurana 10 cildlik izah yazıram. Fəlsəfəni, fizikanı, kimyanı, astronomiyanı bilməsəm, Quranı izah eləyə bilmərəm. İslam dini ədalətsizliyə müxalifət kimi yaradılıb. Quranda neçə yerdə buyurulur ki, nahaqqa, ədalətsizliyə müxalif olun. Hələ biz QMİ-nin nəyəsə müxalif olduğunu, hansısa ədalətsizliyə müxalif olduğunu görməmişik. Məscid bağlanır, QMİ susur, azana qadağalar qoyulur, QMİ susur, məktəbə hicabla getmək qadağan olunur, QMİ susur, müxtəlif zümrədən olan insanlara haqsız davranışlar baş verir, QMİ səsini çıxarmır. Bunun özü göstərir ki, QMİ heç Quranın əsas əmrlərini yerinə yetirmir”.

**ADP sədri dedi ki, bu günə kimi ona şeyxdən heç bir mesaj, xəbərdarlıq, hədə-filan gəlməyib:** “Çünki birincisi, mən qərəzli deyiləm. İkincisi, mən şeyxin özünün də xeyrinə danışıram”.

**QMİ-nin ləğvini tələb edənlərin təxribatçı adlandırılmasına gəlincə, S.Cəlaloğlu bildirdi ki, Siyavuş Novruzovun dindən başı çıxmır, dini bilmir, ona görə də belə danışır:** “Mən faktları,



qanunları göstərərək QMİ və şeyx barədə məlum fikirlərimi ortaya qoymuşam. Siyavuş Novruzov buyursun, mənim arqumentlərimin yanlış olduğunu faktlarla, qanuna əsaslanmaqla desin. Görüm mənim arqumentlərimin əsassız olduğunu sübuta yetirə biləcəkmi? Yoxsa ki, indi mənim dediyim fikirlərə qarşı arqument tapa bilməyib, sadəcə, havaya "bu fikirlər təxribatdır" sözünü söyləmək mənasızdır. Dünyada bir milyard yarım müsəlman var. Yalnız Azərbaycanda İslamın bu cür üsul-idarəçiliyi həyata keçirilir. Nardaranda insan tələfatına səbəb olan yanlış hərəkət olub. Əgər QMİ din sahəsində indiyə qədər olan insidentlərə, xoşagəlməz hadisələrə görə cavabdehlik daşımayıb. Onda sual olunur ki, bu İdarə nəyə cavabdehlik daşıyır?! Nardaran hadisələrinə görə cinayət işi həm də QMİ-nin əleyhinə qaldırılmalıdır. Ona görə ki, dinə nəzarət QMİ-yə verilib. Bu ölkədə İŞİD özünə tərəfdar toplayır, nurçular tərəfdar toplayır, Yevangelistlər tərəfdar toplayır, Məhəbbət Kilsəsi gəlib tərəfdar toplayır, buddistlər gəlib tərəfdar toplayır və xalq getdikcə bu cür yad dini təsirlərin altına düşür, QMİ məsuliyyət daşımır. O zaman bəs bu QMİ nəyə lazımdır?! Bir insanın və qurumun heç bir belə məsələlərdə məsuliyyəti yoxdursa, səlahiyyətlər ona niyə verilir?! Məsələ bu qədər aydındır. Siyavuş Novruzov kimi adamlar isə hələ də keçmiş SSRİ nostalgiyasından ayrıla bilmirlər və sovetin qalıqlarını qoruyurlar”.

❑ **Etibar SEYİDAĞA**

# Səfər Əbiyev qurtuldumu...

## “MTN işi” keçmiş müdafiə nazirinin kölgədə qalmasına səbəb olub, amma...

**2013-cü il prezident seçkilərindən sonra yeni hökumət formalaşdırılarkən vəzifəsinə qaytarılmayan 2 nazirdən biri Səfər Əbiyev oldu. Onun 12 illik müdafiə nazirliyi dövründə Azərbaycan ordusunun durumu haqda çox yazılıb. Döyüş görmüş zabitlər Səfər Əbiyevin nazirlik dövrünü Azərbaycan ordusu üçün “itirilmiş illər” hesab edirlər. Ordudan çıxarılandan sonra onun həbs olunacağı haqda məlumatlar yayılmışdı. Sabiq nazirin həbs edilməsi üçün əsaslar da kifayət qədərdir. Səfər Əbiyevin qollarına dəmir bilərziklərin geyindirilməsi üçün onun nazirliyi dövründə baş tutan tender məsələlərinin araşdırılması kifayətdir. Səfər Əbiyevin qanunsuzluqları ilə barışmayıb etiraz səsini qaldıran zabitlərin başına gətirilən oyunların araşdırılması da sabiq nazirin adının cinayət işində fiquranta çevrilməsi üçün bəs edər...**



Səfər Əbiyev ordudan uzaqlaşdırılandan sonra onun Çexiyada vətəndaşlıq alması haqda da xəbərlər dolaşırdı. Nazirin hətta ev dustağı edildiyi də gələn məlumatlar sırasında idi. Lakin məlum oldu ki, Səfər Əbiyevin əvəzinə 1995-99-cu illərdə onun müavini olmuş Mehman Səlimovu həbs ediblər. Tutduğu vəzifədən azad olunandan uzun illər sonra həbs olunan M.Səlimov sonradan məhkəmə qarşısına külli miqdarda mənimsəmə və vəzifə səlahiyyətlərindən sui-istifadə etmə maddələri ilə çıxarıldı. Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində Səfər Əbiyevin müavini Mehman Səlimovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir. Səfər Əbiyev azadlıqda gəzdiyi bir vaxtda M.Səlimovun külli miqdarda mənimsəmə və vəzifə səlahiyyətlərindən sui-istifadə etmə maddələri ilə həbsdə olması suallar doğurur. Əbiyevin müavini külli miqdarda dövlət pulunu yeyib dağıdıbsa bəs onun naziri hara baxıb?...

Hakim Zeynal Ağayevin sədrliyi ilə baş tutan son prosesdə M.Səlimovun vəkilləri onun üzünə dayanan, əleyhinə ifadə verən şəxslərin məhkəməyə çağırılmasını tələb ediblər. Hakim isə deyib ki, hər iki şəxs Naxçıvanda olduqları üçün məhkəməyə gələ bilməyəcək. Müdafiə tərəfinin vəkilləri də, Mehman Səlimov da buna etiraz edib. Sabiq nazir müavini həmin şəxslərin ittiham tərəfinin şahidləri olduğunu bildirib: “Həmin şəxslər mənim əleyhimə ifadə verib. Yeri gəlsə, onları mən Naxçıvandan gətizdirərəm. Onların məhkəmədə dindirilməsini istəyirəm”.

**Mehman Səlimovun vəkili Ağaveys Şahverdi qısa çıxış edib:** “Adı keçən şahidlər məhkəməyə gəlmirsə, onların ifadələri də sübutlar siyahısından çıxarılmalıdır. Gəlib məhkəmədə ifadə versinlər. Onların ifadəsinin elan olunmasına razı deyilik. Ötən prosesdə də şahidlərdən Rauf Aşurov istintaqa verdiyi ifadəsindən imtina edib”.

Uzun çək-çevirdən sonra məhkəmə yerində müşavirə edərək, həmin şahidlərin məcburi gətirilməsi ilə bağlı qərar qəbul edib.

Bundan sonra Mehman Səlimovun vəkilləri vəsatətlərlə çıxış edib. Onlar Mehman Səlimovun rəhbəri olduğu “STJ” MMC-nin həyata keçirdiyi layihələrlə bağlı yeni ekspertizanın təyin olunmasını istəyiblər. Vəsatət baxılmamış saxlanılıb.

**Vəkillər 2-ci vəsatətlərində Mehman Səlimov həbs olunduqdan sonra onun yarımçıq qalan işlərini davam etdirən podratçı şirkətlərin rəhbərlərinin əlavə şahid qismində məhkəməyə dəvət olunmasını istəyiblər. Bu vəsatət də baxılmamış saxlanılıb. Vəkil Ağayevs Şahverdi bu qərara etiraz edib:** “İşin ədalətli araşdırılmasını istəyirsinizsə, təmin edin, araşdıraq”.

**Vəkil hakimlər kollegiyasına etiraz edəcəklərini də bildirib:** “Biz məsləhətləşib, gələn proses sizə etiraz edəcəyik. Bu cür cinayət işinə baxılmır”.

Məhkəmə prosesi dekabrın 18-də davam edəcək.

**M.Səlimovun məhkəməsi ərəfəsində ehtiyatda olan zabit, hərbi ekspert Üzeyir Cəfərov qəzetimizə açıqlamasında demişdi ki, Mehman Səlimovun həbsində böyük müəmmalar var və bunlara aydınlıq gətirilməsi vacibdir:** “O, Azərbaycan ordusunun ən savadlı zabitlərindən olub. Hələ SSRİ dövründə Bakıda yerləşən dördüncü ordu rəisinin siyasi məsələlər üzrə müavini işləyib. Həmin dövrdə azərbaycanlıları orduda belə vəzifəyə qoymurdular. O, müstəqilliyimizin ilk illərində Prezident Aparatında yüksək vəzifədə çalışıb, hərbi sahəyə rəhbərlik edib. Mehman Səlimov Qarabağ müharibəsi zamanı da mühüm xidmətlər göstərib. Onun həbs olunmasının səbəbləri qaranlıqdır. Çünki ordu sıralarından 15 il əvvəl tərxis olunub. Mehman Səlimovun ordudakı fəaliyyətinə görə həbs olunması böyük sensasiya olardı”.

**Üzeyir Cəfərov əlavə etmişdi ki, Mehman Səlimov müdafiə nazirinin siyasi və ictimai işlər üzrə müavini olanda yaxşı işləyib, həmin dövrdə orduda intihar hallarının sayı çox az olub:** “Mehman Səlimov ordudakı qanunsuzluqlarla mübarizə aparırdı, nizam-intizam təmin olunurdu. Bütün bunlara görə mərhum prezident Heydər Əliyev onu "Azərbaycan bayrağı" ordeni ilə təltif etmişdi".

S.Əbiyevin müavini olmuş M.Səlimov məhkəmədə çarpışdığı bir vaxtda onun özünün kefdə-damaqda olması başadüşülən deyil. Səfər Əbiyevin nazirliyi dövründə Müdafiə Nazirliyində tüğyan edən korrupsiya faktlarının araşdırılması da vacibdir.

Əslində S.Əbiyevin həbs ediləcəyi haqda xəbərlər bir neçə ay öncə intensivləşmişdi. Lakin görünür, “MTN işi” bu məsələni arxa plana keçirib. Ancaq heç şübhəsiz ki, S.Əbiyevin məsələsi hər an yenidən qaldırıla bilər.

❑ **E.HÜSEYNOV**

## Azərbaycan yenə ciddi seçim qarşısında




# İŞİD-ə qarşı yeni koalisiya: rəsmi Bakıya da dəvət gəldi

### Səudiyyə kralı Azərbaycanı terrorçu Bağdadiyə qarşı koalisiyaya çağırdı; seçimi qəlizləşdirən həm də dünyada anti-İŞİD koalisiyasının iki cəbhəyə bölünməsidir

**Dekabrın 15-də Səudiyyə Ərəbistanı elan edib ki, terrorçuluğa qarşı mübarizə üçün İslam ölkələrindən ibarət koalisiya formalaşdırır. Virtualaz.org saytı xəbər verir ki, Səudiyyə Ərəbistanı dövlət xəbər agentliyi 34 ölkənin daxil olduğu antiterror koalisiyasının birgə bəyanatını yayıb.**

Koalisiyaya Yaxın Şərq və Fars körfəzi ölkələri, habelə Malayziya, Pakistan, Türkiyə və bir sıra Afrika ölkələri daxildir. İran təbii ki, bu siyahıda yoxdur.

Yeni hərbi alyansın üzvləri bəyan edir ki, koalisiyanın lideri Səudiyyə Ərəbistanıdır və ər-Riyadda birgə operatv hərbi qərargah yaradılır. Qərargah terrora qarşı birgə mübarizəni koordinasya etməli və dəstəkləməlidir.

Koalisiya "İslam xalqlarını terror bəlasından" müdafiə etmək üçün tam qətiyyətli olduqlarını, İslam adından istifadə edən terrorçuların ölüm saçdığını, günahsız insanları qətlə yetirdiyini, insanların əmlakını taladıqlarını bildirir.

Səudiyyə Ərəbistanının müdafiə naziri Muhammed bin Salman əl-Səud yeni yaradılan koalisiyanın terrora qarşı mübarizə aparan bütün qüvvələrlə əməkdaşlıq edəcəyini bildirib. Həmçinin koalisiyanın təkcə "İslam Dövləti"nə qarşı deyil, istənilən terror qruplaşmasına qarşı döyüşəcəyini bəyan edir.

Səudiyyə Ərəbistanı Azərbaycanı da koalisiyaya dəvət edib. Bu barədə Səudiyyə xarici işlər naziri Adel əl-Cubeyirlə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov arasında aparılmış telefon danışığı zamanı söhbət gedib.

**Məlumatı XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev verib. H.Hacıyev APA-ya açıqlamasında deyib ki, nazirlərin telefon danışığında Azərbaycanın "Terrorçuluğa qarşı İslam dövlətlərinin koalisiyası"na qoşulması məsələsi müzakirə olunub.**

XİN rəsmisi bildirib ki, Azərbaycan qanunlarına görə hansısa koalisiyada iştirak ölkədaxili prosedurların tələblərinə əsasən nəzərdən keçirilməlidir. H.Hacıyev hazırda bu məsələnin nəzərdən keçirildiyini deyib.

"Terrordan əziyyət çəkən ölkə kimi Azərbaycan terrorun istənilən formasını qəti şəkildə pisləyir"-o bildirib.

***

Xatırladaq ki, hazırda İŞİD-ə qarşı iki koalisiya döyüşür. Onlardan biri ABŞ-ın başçılıq etdiyi, bir neçə Qərb və ərəb ölkəsinin qoşulduğu koalisiyadır. Digər koalisiyaya isə Rusiya başçılıq edir, bu koalisiyanın passiv iştirakçıları İran və İraqdır. Azərbaycan da Rusiya döyüş təyyarələrinin Suriyaya uçması üçün hava dəhlizi verməklə bu koalisiyaya yardım etmiş olub.

İŞİD-ə qarşı geniş koalisiya yaradılması ilə bağlı müzakirələr hələ ötən ilin sentyabrda Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilən toplantında başlamışdı. Bundan dərhal sonra Parisdə 26 dövlətin qatıldığı geniş konfransda da yeni koalisiyanın konturları, mübarizə fəaliyyəti geniş müzakirə olunmuşdu. ABŞ hökuməti bəyan etmişdi ki, 40-a yaxın dövlətin İŞİD-ə qarşı müharibə koalisiyasına qoşulacağı gözlənilir. Türkiyə həmin vaxt koalisiyaya qoşulmaqdan imtina etdi və bu, Mosul konsulluğu əməkdaşlarının girovluqda olması ilə izah olundu. İndi Türkiyə yeni yaradılan koalisiyanın da əsas üzvlərindən biridir.

Azərbaycanın hələ o vaxt yeni koalisiyaya qoşulub-qoşulmayacağı ilə bağlı mediada müzakirələr olsa da, rəsmi Bakı bu məsələ ilə bağlı mövqe bildirmədi. Bu susqunluq həm də onunla izah olunurdu ki, rəsmi Bakıya bu barədə təklifin olub-olmadığı aydın deyildi. İndi isə Azərbaycana rəsmi şəkildə bu koalisiyaya üzv olmaq təklif edilib. Aydındır ki, baş koordinasiya Səudiyyəyə tapşırılsa da, yeni koalisiyada əsas söz sahibi ABŞ və NATO ölkələridir.

***

Amma məsələni qəlizləşdirən dünyada anti-İŞİD koalisiyasının iki cəbhəyə bölünməsidir. Rusiya Suriyaya havadan zərbələr endirməyə başladıqdan sonra Türkiyə sərhədində qırıcısının vurulması həm də bu bölünmənin təzahürü idi. İŞİD-ə qarşı, xüsusən Suriyada hərbi əməliyyatlar aparan tərəflər bir-birilərini ittiham edirlər. Rusiya tərəfi iddia edir ki, Amerikanın və Fransanın patronajlığı ilə keçirilən hava zərbəli İŞİD-ə qarşı deyil, Bəşər Əsədə sadiq qüvvələri məhv etməyə yönəlib. Əks tərəf isə iddia edir ki, Rusiya İŞİD-ə qarşı deyil, Bəşər Əsədə müxalif olan qüvvələri hədəf alır. İran da bu məsələdə Rusiya ilə bir mövqedədir. Şübhə yoxdur ki, Səudiyyədə yaradılacaq yeni koalisiyanın da əsas hədəfi təkcə İŞİD deyil, həm də Əsəd rejiminin devrilməsidir.

Qeyd edək ki, ötən ay Litva, Latviya və Estoniya prezidentləri bəyanat yayaraq Rusiyanın olacağı koalisiyada yer almayacaqlarını bildiriblər. Rusiya da İŞİD-ə qarşı yaradılmış və ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyanın əsas hədəfinin Bəşər Əsəd olacağının fərqindədir və bu səbəbdən də bir neçə gün əvvəl koalisiyaya qoşulmayacaqlarını bildiriblər. Rusiya XİN bəyan edib ki, "koalisiya beynəlxalq hüququn prinsipləri əsasında fəaliyyət göstərməlidir. Ya ərazisində hərbi əməliyyatlar aparılan dövlətin razılığı, ya da BMT Təhlükəsizlik Şurasının sanksiyaları olmalıdır. Suriya ərazisində isə bu prinsiplərin heç birinə riayət edilmir. Bu, beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Biz koalisiyanın fəaliyyət göstərdiyi prinsipləri qəbul edə bilmərik".

***

Güman etmək olar ki, Azərbaycan İŞİD əleyhinə koalisiyaya aktiv üzv kimi olmasa da, qoşulacaq. Çünki İŞİD terrorunun Azərbaycana da təsiri var. Azərbaycan vətəndaşları Suriyada, İraqda İŞİD tərkibində döyüşməsi ölkə daxilində dini radikalizm artır. Azərbaycanın koalisiyanın aktiv üzvü kimi hərbi əməliyyatlara qatılacağı, Amerika və Fransa kimi bombardman həyata keçirəcəyi, əlbəttə, real deyil, yəqin ki, bunu heç rəsmi Bakıdan uman da yoxdur. Bu kimi koalisiyalarda aktiv və passiv üzvlər olur. Azərbaycan da təhlükəsizlik, kəşfiyyat sahəsində koalisiya ilə əməkdaşlıq edə bilər. Amma yenə də burada Rusiya və İran faktorunu mütləq nəzərə almaq lazımdır.

❑ **"Yeni Müsavat"**

## Qonağa küftə kasasında qara kürü verdiyimiz vaxtlar...



**Xalid KAZIMLI**

**Bu yazını yazmağa hazırlaşanda əməkdaşlarımızdan biri maraqlı hadisə danışdı və hesab etdim ki, söhbətə giriş elə o hadisənin üzərindən olsa yaxşıdır.**

Hadisə belədir: ötənlərdə bir azərbaycanlı jurnalist ölkəmizdə hələ də adı çoxlarına tanış olan AŞ PA həmməruzəçisi Andres Herkellə görüşüb və onunla Azərbaycan barədə, AŞ PA-ya dair söhbət edib.

Öz prinsipiallığı və əlaalınmazlığı ilə zaman-zaman hökumət adamlarının əsəbini tarıma çəkən Herkel azərbaycanlı jurnalistə danışıb ki, həmməruzəçi olduğu vaxt birinci dəfə Azərbaycana gələndə onu ziyafətə aparıblar və masada onun önünə içində xörək qaşığı olan küftə kasasında qara kürü *(hardasa 3-4 min dollarlıq təam)* qoyublar.

Herkel həm azərbaycanlıların bu səxavətinə, həm də qidalanma mədəniyyətinə mat qalıb. Bu hadisə onu necə şoka salıbsa, budur, 15 ildir yadından çıxarmır, Azərbaycandan söhbət düşəndə o hadisəni danışır.

İndi kimlərsə deyə belər ki, bəli, biz beləyik, hörmətli qonağa qarşı xəsislik etmərik, əlimizdən gələni edərik ki, o razı getsin.

Ancaq AŞ PA həmməruzəçisinə küftə kasasındakı qara kürünü xörək qaşığı ilə yedirtmək istəməyin bir adı da bədnam "kürü diplomatiyası"dır.

Çoxdan qəzet oxuyanlara bəllidir ki, bir ara ölkəmizdə keçirilən seçkilərlə maraqlanan, insan haqlarına riayətə dair durumu öyrənən avropalı diplomat və siyasilərə digər sovqat və bəxşişlərlə yanaşı, "qara kürü" payı qoymaq da dəb olub. Avropalı emissarların içində çox nadir adamlar olub *(Andreas Qross və Andres Herkel)* ki, bu müftə ənamlardan imtina ediblər. Qalanları kürüdən qaşıqlayıb, Azərbaycan hökumətinə uzun ömür, cansağlığı, işlərində müvəffəqiyyət arzulayıblar.

Ancaq bu yazıda söhbət heç də bəzi ikiüzlü avropalı emissarlardan getmir, azərbaycanlı məmurların ölkənin pul-parasını görünməmiş səxavətlə əcnəbilərə yedirtməsindən, israfçılıqdan gedir.

Bir vaxtlar neftin qiyməti 100 dollardan artıq idi, ölkəyə pul sel kimi gəlirdi və bizimkilər elə düşünürdülər ki, həmişə belə olacaq. Nazirlər o qədər pulu səmərəli xərcləməyə yer tapmırdılar. Hərəsinin qoltuğunda smeta dəyəri bir neçə milyard olan layihələr vardı. Əksəriyyəti də onu təsdiqlətmişdi. Dövlət büdcəsi sağım aqreqatına qoşulmuş İsveç inəyi kimi sağılırdı. Ancaq yenə də sel kimi gələn neft pullarını dağıdıb-bitirmək mümkün deyildi.

Əlbəttə, xalq umurdu ki, camaatı siyahıya alıb adambaşına xeyli neft pulu paylasınlar, amma belə bir təşəbbüs yox idi. Əvəsində hökumət o pullar hesabına vətəndaşların illərlə dövlət şirkətlərinə yığılmış borcunu (qaz, işıq, su, digər kommunal xərclər) bağışlayırdı.

Ölkənin reputasiyasının pul gücünə yaxşılaşdırılması, Azərbaycanın adının bahalı reklam layihələri *(məsələn, Madridin "Atletiko" komandasının oyunçularının formasında "Land of Fire - Azerbaijan" yazılması)* ilə dünyaya tanıdılması, bahalı musiqi və idman yarışlarına təşkilatçılıq etmək xətti götürülmüşdü.

Bu günümüz heç kəsin ağlının ucundan keçmirdi. Hamı düşünürdü ki, neft də torpaq kimidir, ildən-ilə azaldığı üçün qiyməti həmişə arta-arta gedəcək.

Ancaq tərsinə oldu, neft pulları Rusiyanı necə qudurtdusa, o SSRİ dövründəki qədər aqressiv oldu və dünya birliyi onu yavaşıtmaq üçün ona qaz verən maddənin - neftin qiymətini süni şəkildə aşağı saldılar. İndi qurunun oduna yaş da yanır.

Budur, xəbər gəlir ki, böyük pullarla adını ARDNŞ-dən çevirib dünyaya SOCAR kimi tanıdan neft şirkətimiz "kəmərsıxma" tədbirlərinə başlayıb, ölkədə və dünyada idman, incəsənət layihələrinə sponsorluq etməyi məhdudlaşdırıb.

Heç kəsə sirr deyil, hər il bu layihələrə şirkətin, dolayısı ilə xalqın yüz milyonlarla pulu gedirdi. Tam əksəriyyəti də mənasız tədbirlər idi, pul mənimsəmə, müftə-müsəlləm kef eləmə səciyyəsi daşıyırdı.

İndi ARDNŞ bu havayı dağılan, havaya dağıdılan pula qənaət edəcək - ta ki, neftin qiyməti babat olana qədər.

Güman ki, indən belə ölkəmizə təşrif buyuran diplomatların masana da qara kürünü içində xörək qaşığı olan küftə kasasında yox, böyründə çay qaşığı olan nəlbəkidə qoyacaqlar.



# Hər şey formal məntiqə sığsaydı...

Hüseynbala SƏLİMOV

**Bəli, yaddaşı silmək çətin məsələdir. Biz uzun müddət nə vaxtsa oxuduqlarımızın və eşitdiklərimizin təsiri altında oluruq. Ona görə də insan müəyyən mənada uşaqlıq və gənclik təəssüratlarının əsiri olur...**

Bizim gəncliyimiz sovet dövrünə təsadüf edib. Elə bu səbəbdən istəsək də, istəməsək də, o illərdə beyinlərimizə həkk olunmuş olayları unuda bilmirik...

Bilirsiniz, sovet rejimi qəribə quruluş idi. Dünyanın birinci totalitar ölkəsi özü insan hüquq və azadlıqlarını tapdalasa da, insanlara mütləqiyyətə, istidbada qarşı nifrət və sayğısızlıq aşılayırdı - müasirlik, sosial ədalət, bərabərlik bu rejimin dəyər verdiyi böyük anlayışlar idi...

Nə gizlədək, o vaxt bizə SSRİ tarixi əvəzinə Rusiya tarixini tədris edirdilər. Ümumilikdə bu, çox neqativ hadisə idi, çünki öz tariximizi bilmirdik. Amma Rusiya tarixində də təqdir etməli hadisələr çox idi. Bunlardan biri də dekabristlər və dekabrist üsyanı idi...

Bu günlərdə oxuyanda ki, bu həftə dekabristlər üsyanının üstündən düz 190 il keçir, nədənsə özümüzdən də aslı olmadan ürəyimizdən xəfif duyğular keçdi və sanki bircə anlığa o dövrə - sovet dövrünə qayıtdıq...

Yox, bu, nostalji deyil və heç də o illər üçün qəribsəməmişik. Sadəcə, yaddaş var və bu yaddaş yalnız özünə bəlli olan məntiqlə pislikləri unutdurur, yalnız yaxşılıqları saxlayır...

Sovet rejimi tarixdə çarizmə, mütləqiyyətə qarşı baş vermiş ən kiçik olayları belə qabardır, bu olaylarla əlaqəli olmuş şəxsləri fetişləşdirirdi...

Kim idi dekabristlər? Qərb dəyərlərinə önəm verən, respublikaçılıq ideallarını uca tutan zadəganlar! Onlar məğlub oldular. Hətta etiraza başlamamışdan öncə özlərinə də xəbər çatmışdı ki, artıq çar hər şeydən məlumatlıdır. Amma yenə də etirazlarını təxirə salmadılar, düşündülər ki, bu, Rusiyanın gələcək nəsilləri üçün örnək olacaq...

Oldumu? Demək çətindir. Təbii ki, 190 il ərzində Rusiyada çox hadisələr baş verdi, böyük ideallar uğrunda neçə-neçə insan həyatını qurban verdi...

O dövrün bir qəhrəmanı da olmuşdu - A.Puşkin. Çar ondan soruşanda ki, bəs həmin gün Peterburqda olsaydı kimin yanında olardı? Puşkin düşünmədən cavab vermişdi ki, təbii ki, dostlarının - dekabristlərin yanında olardı...

Puşkinin dekabristlərlə, azadlıqla bağlı çox şeirləri olub. Amma onun bir zəif cəhəti vardı - şairin demək olar ki, bütün tədqiqatçıları onu imperiyanın və azadlığın nəğməkarı adlandırır. Bəli, imperiyanın və azadlığın nəğməkarı! Bu möhür Rusiyanın demək olar ki, bütün böyük insanlarının üzərində var...

Ona görə də indiki Rusiya ziyalılarını heç də qınamırıq - onlar azadlıqla bahəm həm də imperiyanın böyüməsində və qüdrətlənməsində maraqlıdırlar...

Nə etmək olar? Hər ölkənin öz spesifikası, öz özəlliyi var. Bəzən bu özəllikləri başa düşmək, anlamaq çətin olur. İndi də biz Rusiyanı dərk etməyə çətinlik çəkirik. Elə 190 il bundan əvvəl də bunu etmək asan deyildi...

Bəli, dekabristlərin hərəkəti formal məntiqə sığmır, çünki formal məntiq bizə deyir ki, əgər planın üstü açılmışdısa, çara hər şey məlum idisə, etiraz etməyə və göz görə-görə məğlubiyyətə getməyə ehtiyac vardımı? Axı bunun sonu dar ağacı və sürgün demək idi...

Amma onlar bu taleyi seçdilər. Rusiyanın anlaşılması çətin olan olaylarının birini də artırdılar. Bir daha deyirik ki, bu, formal məntiqə sığımır. Amma gəl ki, həyat elə ona görə həyatıdr ki, o, formal məntiqin fövqündədir! Həyatda hər şeyi formal məntiqə sığışdırmaq mümkün olsaydı o, nə qədər maraqsız və mənasız olardı!..

Fəqət, bir məsələ var ki, onu da mütləq qeyd etməliyik... Keçmişdən fərqli olaraq indki Rusiya stimul yaratmır və o, azad insanların ölkəsindən daha çox ümumi psixoz altında olan cəmiyyətin ölkəsini xatırladır. Bəli, Rusiya daha əvvəlki kimi cəlbedici deyil...

Bəlkə də Rusiyaya dünyanın ona münasibətini öyrənmək maraqlı olardı. Amma onlar bu haqda heç düşünmürlər də... V.Putin həmişə deyir ki, bəs bizə günah kompleksi aşılamaq istəyirlər, biz isə bunu yaxın buraxmamalıyıq...

Olsun. Fəqət, bir gün ABŞ-da minlərlə insan Vyetnam müharibəsində aldığı orden və medalları Ağ Evin önünə, ayaqlar altına atdılar. Bundan ABŞ zəiflədimi? Gücdən düşdümü? Bizə elə gəlir ki, belə olmadı, amerikalılar və onların ölkəsi bundan sonra bir boy da yüksəldilər...

# MTN generalının terrorçuya çevirdiyi mütəxəssisin acı taleyi

## Vüqar Padarovun dəstəsi ilə ittiham olunan Nəriman Abbasoğlunu necə terrorçu dəstəyə "üzv ediblər"...

**Sabah Eldar Mahmudovun milli təhlükəsizlik naziri postundan çıxarılmasının 2 ayı tamamlanır. Bu ərəfədə redaksiyamıza Bakı sakini Nəzakət Əsgərova müraciət edərək bacısı oğlunun qanunsuz həbsinin, sonradan isə məhkum olunmasının təfərrüatlarını danışıb.**

### Qəfil həbs...

**6 aprel 2012-ci il.** Bakı şəhəri, Xətai rayonu, Naximov küçəsi ev 11. Səhər saat 05. Qara maskalılar 11 saylı binadakı 443-cü mənzilə hücum edir. Səs-küyə yuxudan oyanıb bloka çıxan qonşular maskalılarla üzləşir. Onlara "MTN əməliyyat keçirir, evlərinizə qayıdın" əmri verilir. Az sonra qonşular əli qandallanmış ev sahibi Nəriman Abbasoğlunun qara maskalıların əhatəsində binadan çıxarıldığının şahidi olurlar. Sonrakı günlərdə onun yaxınlarından öyrənirlər ki, N.Abbasoğluna terrorçuluğa hazırlıq, qanunsuz silah saxlama və qanunsuz silahlı dəstə üzvü olma ittihamı verilib.

### Terrorçu dəstəyə pərçimlənən "Hi-End" kateqoriyalı audiotexnika üzrə yeganə mütəxəssis

**Nəzakət Əsgərova deyir:** "Nəriman 3 bacının yeganə övladıdır. Texniki Universitetin "Radiotexnika" fakültəsini bitirib və xüsusi akustik tərzi ilə fərqlənən səsgücləndirici qurğular yığmaqla, paritet qramofonları yeniləməklə məşğul olub. 2007-ci ildə "Üns" Yaradıcılıq Səhnəsində və həmin səhnənin nəzdindəki "Your Style" şirkətinə işləməyə başladı. Nəriman Azərbaycanda "Hi-End" kateqoriyalı audiotexnika üzrə yeganə mütəxəssisdir. O, ölkə rəhbərliyinin iştirak etdiyi tədbirlərin audio-akustika məsələlərini təşkil edirdi. Biz Nərimanın həbsindən sonra bildik ki, 2011-ci ildən MTN-in Antiterror Mərkəzi (ATM) onun və iş yoldaşlarının başına oyunlar açıblar. İş o yerə çatıb ki, şirkətdə çalışan mütəxəssislərin əksəriyyəti oranı tərk etmək məcburiyyətində qalıblar".

**N.Əsgərova deyir ki, bacısı oğlunun inadkarlığı onun şərlənərək həbs edilməsi ilə sonuclanıb:** "Nəriman "Üns"də audio-akustika məsələləri ilə yanaşı həm də proqram təminatçısı idi. Biz Nərimanın həbsindən sonra bildik ki, ATM-dən olanlar ondan teatrın daxili internet şəbəkəsinə girmək üçün şərait yaratmasını tələb ediblər. Lakin Nəriman buna razı olmayıb. Onların daxili şəbəkəyə girmək niyyətlərinin olduğunu biləndən sonra isə şəbəkənin təhlükəsizliyini təmin etmək üçün kodunu tez-tez dəyişib".

**N.Əsgərova deyir ki, bacısı oğlunun həbsi əməliyyatına ATM-in sabiq rəis müavini İlqar Əliyev rəhbərlik edib:** "Bu adamlar Nərimanı özlərinə tabe etdirmək üçün ona çoxlu problemlər yaradıblar. "Üns"də əməliyyat keçiririk" adı ilə Nərimandan teatra dəvətnamələr alıblar. Guya teatra hansısa təhdid var və bunlar ora gəlib həmin mümkün təhdidin qarşısını alacaqlar. Əvəzində isə həmin dəvətnamələrlə teatra öz qohum-əqrəbaları, dost-tanışlarını göndəriblər. 1 ilə yaxın Nərimanla teatr rəhbərliyini bu qaydada üz-üzə qoymağa çalışıblar. Onu və digər vicdanlı işçiləri gözdən salmaq üçün addımlar atıblar. 2012-ci il martın 3-də Səbayel rayonunda işıqlar sönüb. Həmin vaxt ATM-dən teatra nümayəndələr gəlib və yenidən dəvətnamə tələb ediblər. Lakin işıqlar söndüyündən, bilet satışı isə elektron qaydada aparıldığından onlara dəvətnamə verilməyib. Həmin gün Nəriman evə gəldi, çox əsəbi idi. Dedi ki, daha dözə bilmədim, onları söymüşəm. Bu söhbətdən təxminən 1 ay sonra - aprelin 6-da Nərimanı qondarma ittihamla həbs etdilər".







### Vüqar Padarovun dəstəsində olanlar Nərimana "kafir" deyirdilər

**N.Abbasoğlunun yaxınları sonradan biliblər ki, onu 2012-ci il "Eurovision" mahnı yarışması öncəsi zərərsizləşdirilən Vüqar Padarovun dəstəsinin üzvü kimi həbs ediblər:** "Nəriman bütün gününü teatrda, vaxtı olanda isə dost-tanışı ilə məclislərdə, diskotekada keçirir, yay istirahəti zamanı kurortlara gedirdi. Yəni onun dini təmayüllü hər hansı bir dəstəyə üzv olması fantastika idi. Məhkəmə zamanı Vüqar Padarovun dəstəsində olanlar Nərimana "kafir" deyirdilər. Onlar hakimə yazılı şəkildə müraciət etmişdilər ki, bu adamın bizim dəstəyə aidiyyəti yoxdur. Nərimanın həbsindən sonra ilk dindirilmə "Üns" teatrı və "Your Style" şirkəti ətrafında aparılıb. Orada müstəntiq Nərimana deyib ki, "biz sənin cinayət etmədiyini bilirik, ancaq Antiterror Mərkəzinin rəisi Elçin Quliyev tələb edir ki, bu sursatı sənin boynuna qoyaq. Onu da bil ki, burada sınmayan adam olmayıb, istəsək boynuna terrorçuluğu da götürərsən".

### "Silah-sursatı boynuna götür, Elmir Nurəliyevə dərs keçdiyini də boynuna al"

Həmin gün MTN-in 1-ci mərtəbəsində Nəriman təhqir olunub, ona qarşı fiziki zor işlədilib. Məhkəməyə aparılan zaman Nərimanın bədənində döyülmə izləri olub. Ona məcburi surətdə təhkim olunmuş 3 saylı hüquq məsləhətxanasının vəkili Xədicə Şirinova Nərimana qeyri-qanuni əməkdaşlıq təklif edib. Deyib ki, "silah-sursatı boynuna götür, Elmir Nurəliyevə dərs keçdiyini də boynuna al. Bu halda sənə 6-7 il verilə bilər. Əks təqdirdə sənin cəzan 10 və daha çox illərə hesablanacaq". Nəriman isə təklifi rədd edib. Xədicə Şirinova dindirmələrdə, ifadə vermə və prosedurlarda iştirak etməyib, protokolları sonradan imzalayıb".

**N.Əsgərova deyir ki, Nərimanı işgəncə verməklə şikəst ediblər:** "1 il davam edən istintaq ərzində Nərimanın qabırğaları, diz qapağı sındırılıb, onurğa sütununda problemlər yaranıb. Ona mütəmadi olaraq elektroşok tətbiq edilib. Bütün bədən üzvlərində, əsasən beyin nahiyəsində elektroşokun təsirindən yaranmış çoxsaylı izlər var. MTN İstintaq Baş İdarəsinin mühüm işlər üzrə müstəntiqi Samir Əliyev cinayət işinin cildlərinin birində qırmızı qələmlə çəkilmiş imzanı göstərib söyləmişdi: "Biz istintaq qrupu iclaslarda sənə görə çox döyüşüb-sözləşdik. Sübutsuz, motivsiz, adsız cinayəti sənin şəxsiyyətinə uyğunlaşdırmaq bizim insafımıza ziddir. Antiterror Mərkəzinin rəisi bizdən güclü çıxdı. Bağışla, bizi qınama. Kişinin başına iş gələr".

İttiham aktının N.Abbasoğluna aid olan hissəsində çox sayda təhrif olunmuş məqamlar var. Müstəntiqin N. Abbasoğlunun məsafədən idarə olunan qurğularla işləmək bacarığına malik olması və bu sahə ilə maraqlanan şəxsə məsləhətlər verməsi ilə bağlı şübhələri sübut edilməyib. Buna baxmayaraq, MTN İstintaq Baş İdarəsinin şöbə rəisi Mahir Qasımov güman və şübhələrinə əsaslanaraq N.Abbasoğlunu təqsirli hesab edib. İstintaqın N. Abbasoğluna aid olan hissəsinin bu cür "çiy" halda tamamlanması ittiham aktının gələcəkdə heç vaxt araşdırılmayacağına hesablanmış addım idi.

Qeyd edək ki, N.Abbasoğlunun yaxınları prezident İlham Əliyevə və hüquq-mühafizə orqanlarına müraciət edib.

Onlar məhkəmə hökmünün Nəriman Abbasoğluna aid olan hissəsinin dəyişdirilməsini, ona bəraət verilməsini istəyirlər.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 280 (6308) 16 dekabr 2015

# Vitse-spikerdən Rusiya ilə bağlı ilginc açıqlamalar

## "Rusiya ilə bizim uzun əsrlik əlaqələrimizi, bu böyük qonşumuzla münasibətlərimizin hansı səviyyədə olduğunu elə dost, qardaş ölkə Türkiyə də bilir"

**Ankara ilə Moskva arasında mövcud olan gərginliklər davam edir və bu gərginlik Azərbaycana da təsirsiz ötüşmür. Rəsmi Bakının bu məsələ ilə bağlı ehtiyatlı mövqeyinin səbəbləri barədə Milli Məclis sədrinin müavini, YAP-ın İdarə Heyətinin üzvü Bahar Muradova ilə danışdıq.**

***– Bahar xanım, Türkiyə-Rusiya qarşıdurmasına YAP nədən açıq şəkildə reaksiya bildirmək istəmir? Belə ehtimal var ki, hakim partiya Türkiyəni dəstək mövqeyinin Rusiya tərəfindən aqressiv qarşılana biləcəyindən ehtiyatlanır. Belədirmi?***

- Bizimçün münasibətdə olduğumuz ölkələrin hər biri ümumi maraqlarımız üçün əhəmiyyət kəsb edir. Yəni biri ilə münasibəti heç zaman digərinə qarşı qoymuruq. Hətta vəziyyət ona qarşı getdiyi şəkildə belə, onu dəyişməyə çalışırıq.Məncə bu, daha doğrudur.

***– Azərbaycan tərəfin mövqeyindən Moskva, yaxud Ankarada narahatlıq və ya narazılıq yoxdur ki?***

- İndiyə qədər belə bir narahatlıq və ya narazılıq olmayıb. Biz təkcə konkret bu məsələdə deyil, hər zaman eyni mövqeni gözləyən bir ölkəyik. Ona görə də belə vəziyyət bizimçün yeni deyil. Həm vəziyyəti yaxşılığa doğru dəyişməyə, həm də ayrı-ayrılıqda həmin ölkələrlə əldə etdiyimiz razılaşmalara, öhdəliklərimizə uyğun şəkildə davranmağa çalışırıq. Biz həmişə bunun öhdəsindən gəlmişik. Hesab edirəm ki, indiki halda da belədir. Bizim Türkiyə ilə strateji tərəfdaş, dost, qardaş ölkə olduğumuzu heç kəs inkar edə bilməz. Bunu hər kəs, o cümlədən bu gün Türkiyə ilə konfliktli vəziyyətdə olan, bu və ya digər narazılıqları olan ölkələr, o cümlədən Rusiya da bilir. Onlar da yəqin ki, Azərbaycanla münasibətlərini və siyasətlərini də bu amili nəzərə alaraq qururlar. Bu, onlar üçün də yenilik deyil. Amma Rusiya ilə də bizim uzun əsrlik əlaqələrimizi, bu böyük qonşumuzla münasibətlərimizin hansı səviyyədə olduğunu elə dost, qardaş ölkə Türkiyə də bilir. Ona görə də belə bir incə və həssas məqamda hər hansı tərəfin mövqeyindən çıxış edib, kimisə özümüzə düşmən elan eləmək kimi hərəkətlərə yol verməmişiksə, deməli, bu, doğru yanaşmamızın və doğru siyasətimizin nəticəsidir. Çalışmalıyıq ki, mövcud imkanlardan istifadə edərək məsələlərin daha rahat və zərərsiz həll olunmasına yardımçı olaq, nəinki bu və ya digər tərəfi tutaraq onları daha da qızışdırmağa sövq edək.


Bahar Muradova

***– Amma eyni zamanda Rusiya Ermənistandakı silah-sursatının və şəxsi heyətinin miqdarını artırmaqdadır. Hesab olunur ki, bu, Türkiyə ilə bərabər, Azərbaycana da təhlükədir. Bununla bağlı ehtiyatlılıq varmı?***

- Bu ehtiyatlılıq istənilən halda olmalıdır və təbii ki, var. Amma biz də bilirik ki, bizim Ermənistanla problemimiz həlelik hazırda Ermənistan ərazisi kimi tanınan torpaqlarla bağlı deyil, Azərbaycanın tərkib hissəsi olan Qarabağla əlaqədardır. Əgər Azərbaycan tərəfindən bu və ya digər tədbirlər həyata keçiriləcəksə, hansı ki, Ermənistanı qıcıqlandıra və onun böyük dostunu narahat edə bilər, bu, Azərbaycanın sərhədləri daxilində olan biləcək hərəkətlərdir. Ona görə də biz bu amili göz önündə tutmaqla yanaşı, onun bu prosesə qarışmayacağının, qarışa bilmək imkanlarının məhdudluğunu da bilirik. Bilirik ki, Rusiya hər zaman belə addımlar atarkən bunun üçüncü ölkəyə, o cümlədən Azərbaycana yönəlmədiyini vurğulayır. Biz də buna inanmaq istəyirik və inanırıq ki, bundan əvvəl baş vermiş neqativ hadisələr daha həssas bir dönəmdə, indiki vaxtda təkrarlanmayacaq. Həm də həmin vaxtdan fərqli olaraq, Rusiya-Azərbaycan münasibətləri indiki reallıqlara uyğun fərqli axarda gedir. Ona görə biz bu addımların Azərbaycana qarşı yönəlmədiyi barədə Rusiya tərəfinin fikirlərini əldə rəhbər tuturuq və siyasətimizi də buna uyğun qururuq. Hər halda, vəziyyət bizim düşündüyümüzdən fərqli məcraya qədəm qoyacaqsa, yəqin ki, uyğun münasibətimizi də onda bildirəcəyik. Hazırki, halda biz bunun Azərbaycan üçün nəzərdə tutulmadığı qənaətindəyik. Həm də bu, o demək deyil ki, əgər bu, Türkiyə üçün nəzərdə tutulursa, bizi narahat etmir. Biz ümumiyyətlə, regionda hərbi gücün cəmləşməsinin bütün region ölkələri üçün narahatlıq doğurduğu fikrini bölüşürük və bunu da ifadə edirik.

❑ **Elşad PAŞASOY**

# Tanınmış rusiyalı politoloqdan Qarabağda müharibə xəbərdarlığı




## Ekspert savaşı qaçılmaz hesab edir; "O halda Rusiya Ermənistanı, Ermənistan da öz növbəsində Qarabağdakı separatçı qüvvələri dəstəkləyəcək..."

**Tanınmış rusiyalı politoloq və ictimai xadim Maksim Şevçenko rusdilli minval.az saytına müsahibə verib. Müsahibdə o, Türkiyə-Rusiya münasibətlərinin perspektivinə və Dağlıq Qarabağ ətrafındakı mövcud situasiyanın mümkün inkişaf ssenarilərinə xüsusi toxunub.**

Ankara-Moskva münasibətlərindən danışan politoloqa görə, tərəflərin maraqları Suriyada yox, Güney Qafqazda toqquşur: "Suriya poliqonu xeyli dərəcədə konfrontasiya üçün seçilib ki, Cənubi Qafqazda və bütövlükdə Qafqazda vuruşmaq imkanları olmasın. Tamamilə aydındır ki, dövlətlərin gələcəyi və 21-ci əsrin elitaları, hər halda, yeni nəqliyyat və enerji resursları dəhlizləri kontekstində düzən tapacaq. Onların demək olar, hamısı cənubdan - Rusiyadan yan ötməklə getməlidir: bu Bakı-Tiflis-Ceyhan, "İpək yolu"dur...

İstənilən bölgüdə Türkiyə böyük bazarlara doğru bu dəhlizlər üçün sonuncu "ötürücü" qismindədir. Ona görə də əgər Moskva bütün bunlardan kənarda qalsa, o zaman bir əyalət dövlətinə, Qərbi Avropanın xammal əlavəsinə çevriləcək - inkişafdan və müasir tranzitdən məhrum olmaqla birgə. Aydındır ki, Rusiya imkan verməyəcək ki, bütün tranzit yolları ondan yan ötməklə qurulsun. Rusiya Güney Qafqazı özünün həyati maraqlar zonası sayır və bu səbəbdən də Azərbaycan, Gürcüstan və Ermənistanla mehriban qonşuluq əlaqələri qurmağa hazırdır, ancaq özünün iqtisadi tarixdən kənara atılması hesabına yox. Rusiya üçün regionda xarici rəqiblərə uduzmaq Qafqazı bütünlüklə itirmək deməkdir.

Odur ki, sadalananlar nəzərə alınanda, Rusiya ilə Türkiyə arasında konflikt həll oluna bilən deyil. Türkiyə NATO hərbi-siyasi blokunun üzvüdür və daima Avropa Birliyinə can atır. Ona görə də bu dövlət Avropa və Amerika siyasi məkanına daha yaxındır, nəinki Rusiya məkanına - baxmayaraq ki, Rusiya ilə əlaqələr Türkiyə əhalisi üçün əlverişlidir".

**"Rusiya ilə Türkiyə arasında konflikt həll oluna bilən deyil..."**

**Politoloq Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsi fonunda Qarabağ münaqişəsinin dinc həll yollarını qaranlıq görür, yaranmış vəziyyətdə müharibə risklərinin xeyli artdığını düşünür:** "Mən demək olar, əminəm ki, bu situasiyada Qarabağda müharibə qaçılmazdır. Rusiya və Türkiyə birbaşa hərbi konfrontasiyadan çəkinir. Üstəgəl, qanadlı raketlərin buraxılması və nüvə silahı barədə prezident Putinin bəyanatları ilə Rusiya özünün ciddi qarşıdurma səviyyəsinə hazır olduğunu nümayiş etdirib. Bütün bunlara rəğmən, Rusiyanın Türkiyə ilə, NATO ilə indiki şərtlərdə qarşıdurması mümkün deyil. Ona görə də münaqişələr Suriyanın, Cənubi Qafqazın ərazilərinə keçiriləcək... və burada suriyalıların, azərbaycanlıların, ermənilərin əli ilə tərəflər öz maraqların çərçivəsində dolayı müharibə apara bilər. Bu xüsusda Qarabağda müharibənin yenidən qızışma ehtimalı çox böyükdür".

**Analitikə görə, Rusiya Azərbaycanla vuruşmaq istəmir:** "Ancaq əgər Azərbaycan Ermənistana hücum eləsə, bu qaçılmaz olacaq. Doğrudur, 7 rayon və Dağlıq Qarabağ hüquqi cəhətdən Azərbaycan ərazisidir. Amma zəmanət yoxdur ki, müharibə Ermənistan ərazisinə keçməyəcək. Birinci Qarabağ savaşı zamanı mərmilər Ermənistan ərazisinə də düşürdü. Ona görə də risk böyükdür ki, istənilən halda Rusiya Ermənistanı, Ermənistan da öz növbəsində Qarabağdakı erməni silahlı qüvvələrini dəstəkləyəcək. Bunu heç müzakirə eləməyə də dəyməz. Üstəlik, informasiyalar var ki, Dalıq Qarabağa suriyalı və livanlı ermənilər göndərilir - hansılar ki, yaxşı döyüş təcrübəsinə malikdir və iki vətəndaş müharibəsindən keçiblər".

**Ekspert müharibə kontekstində daha sonra Azərbaycan üçün incə bir məqama da toxunub:** "Azərbaycan üçün müharibənin təhlükəsi həm də ondadır ki, prezidentin qızı Leyla Əliyevanın ailəsi Moskvada yaşayır, Ağalarovlar ailəsinin Rusiyada nəhəng biznesi var, bakılı yəhudilər - iri biznesmenlər olan Qod Nişanov və Zarax İliyevə Rusiya paytaxtındakı böyük meyvə-tərəvəz bazarı, "Ukrayna" mehmanxanası və s. məxsusdur. Rusiya Federasiyasında Azərbaycan elitasının toplam payı yüz milyardlarla dollarla ölçülür. Müharibə olacağı təqdirdə - hansı müharibədə ki, Azərbaycan-Rusiya münasibətlərinin korlanma ehtimalı böyükdür - Azərbaycan elitasına ciddi zərbə dəyəcək. Ona görə də düşünürəm ki, Rusiya ilə konflikt az ehtimallıdır. Ancaq Azərbaycan yəqin ki, Türkiyə ilə müttəfiqlik əlaqələrinə sadiq olduğunu göstərəcək".

Problemin dinc həllinin tərəfdarıyam... Tam mümkündür ki, Dağlıq Qarabağ məsələsi sonralar muxtariyyət əsasında yoluna qoyulsun. Ssenarilər müxtəlif ola bilər. Ancaq hələlik geosiyasi situasiya hərbi variant istisna olmaqla, onlardan heç birinin reallaşmasına imkan vermir. Nə qədər ki, Rusiya strateji bazarlardan vurulub çıxarılır, Qarabağa dair konsensus əldə olunmayacaq".

"Onu da qeyd edim ki, Ermənistanda da, Azərbaycanda da müharibəyə hazırdırlar. Hər iki dövlətdə mənəvi səfərbərlik həyata keçirilib. Hər iki ölkənin KİV-lərindəki məqalələr buna sübutdur. Lakin tərəflər bir şeyi

**"Müharibə olacağı təqdirdə Bakı-Moskva münasibətlərinin korlanma ehtimalı böyükdür, Rusiyadakı Azərbaycan elitasına ciddi zərbə dəyə bilər"**

**Bu xüsusda politoloq Türkiyə-Azərbaycan hərbi əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olmasına da diqqət çəkib:** "Azərbaycanlı hərbi qulluqçular müntəzəm şəkildə Türkiyədə hazırlıq keçirlər, Rusiyada yox. 20 il ərzində onlar Türkiyədə staj qazanıblar və Azərbaycan ordusu Türkiyə nümunəsi əsasında formalaşıb. Qarabağ müharibəsinin başlanması mənə dəhşətli yuxu kimi görünür, çünki mən başa düşməlidirlər ki, İran-İraq konfliktinin təkrarlanması onlara lazımdırmı?! Belə qüvvələr nisbətində ermənilər Bakını, azərbaycanlılar isə İrəvanı bombalayacaq. İndi 90-cı illər deyil, tərəflərin malik olduğu silahlanma sistemi xeyli dərəcədə modernləşib. Odur ki, təkcə Dağlıq Qarabağ və 7 rayonla məsələ yekunlaşmayacaq" - əlavə edib rusiyalı ekspert.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 280 (6308) 16 dekabr 2015



# Etibar Pirverdiyev hesablamada "yandı"

## Hesablama Palatası "Azərenerji" ASC-də aparılmış auditin nəticələrinə dair məlumat yayıb; ASC sədri hakimiyyətdəki etibarını tam itirib

**Hesablama Palatası "Azərenerji" ASC-də aparılmış auditin nəticələrinə dair məlumat yayıb. Palatanın rəsmi saytı xəbər verir ki, audit "Azərenerji"yə ayrılan büdcə vəsaitlərinin xərclənməsində ciddi pozuntular üzə çıxarıb. Aparılmış yoxlamalar üzə çıxarıb ki, "Azərenerji" ASC tərəfindən dövlət əsaslı vəsait qoyuluşu üçün tələb olunan büdcə vəsaitlərinin proqnozlaşdırılması zamanı sahə üzrə dövlət investisiya layihələrinin əsaslandırılmasını, ilkin strukturunu və qiymətləndirilməsini özündə əks etdirən investisiya təklifləri tərtib edilməyib.**

Birbaşa layihə-smeta sənədlərinin hazırlanması, layihənin texniki-iqtisadi əsaslandırılması və qiymətləndirilməsi aparılmayıb. Tikinti layihələri şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması, həmin tikinti obyektlərinə ayrılmış vəsaitlərin səmərəli istifadəsinin qiymətləndirilməsi üçün ekspertizadan keçirilməyib. Habelə müvafiq qaydaların tələblərinə uyğun olaraq tikintilərin cari qiymətlər səviyyəsində ehtimal olunan dəyəri müəyyən edilməyib.

Auditor bir neçə halda paylayıcı elektrik şəbəkələrinin yenidən qurulması layihəsi üzrə obyektlərin layihə-smeta sənədlərinin podratçı təşkilatın sifarişinə əsasən hazırlandığını müəyyən edib. Həmçinin layihə-smeta sənədlərinin hazırlanması xərclərinin podrat müqaviləsinə daxil edildiyini, işlərin yerinə yetirilməsi zamanı podratçıya artıq vəsait ödənildiyini üzə çıxarıb.

Yoxlamalar nəticəsində müəyyən olunub ki, "Azərenerji" ASC işlərin və xidmətlərin satın alınması zamanı bəzi hallarda satınalma proseduru tətbiq edilmədən podratçılarla birbaşa müqavilələr bağlayıb.



Etibar Pirverdiyev

Hesablama Palatası həmçinin müəyyən edib ki, bir neçə obyektin tikintisi başa çatdırılsa da Dövlət Qəbul Komissiyası tərəfindən istismara qəbul edilməyib. Ancaq həmin obyektlərin dəyərinin ASC-nin maliyyə hesabatlarında aktivlərə aid edildiyi üzə çıxıb.

Yada salaq ki, bu ilin fevral ayında ölkə başçısı Ilham Əliyevin imzaladığı sərəncamla "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilən elektrik enerjisi ilə istehlakçıların təmin olunması səlahiyyəti "Azərişıq"a verilib. Bundan sonra Hesablama Palatası, Vergilər Nazirliyi və digər müvafiq qurumlar "Azərenerji" ASC-də ciddi yoxlamalara start vermişdi. Pirverdiyevin işini çətinləşdirən daha bir mühüm fakt Bayraq Meydanının sabiq rəhbəri, "AzImport" şirkətinin sahibi Rəşad Məmmədov və onun şirkətdəki şəriki Azər Əsgərovun həbsidir. Məlumdur ki, Bayraq Meydanının tikilməsi E.Pirverdiyevə həvalə olunmuşdu və R.Məmmədovun həbsindən sonra tikinti zamanı baş vermiş yeni korrupsiya faktları üzə çıxıb.

E. Pirverdiyevin korrupsiya əməlləri və hakimiyyətdəki etibarını itirdiyi barədə məlumatlar çoxdan mətbuatda dolaşırdı. Səhmlərinin 100 faizi dövlətə məxsus olan ASC-yə milyardlarla dollara yaxın investisiya yatırılsa da, prezidentin fevral sərəncamından da belə məlum oldu ki, ayrılan vəsaitin əhəmiyyətli hissəsi mənimsənilib. Mütəxəssislərin hesablamalarına görə, ayrılan vəsait-hansı ki, onun əhəmiyyətli hissəsini dövlət kredit şəklində alıb - məqsədəuyğun sərf edilsəydi, Azərbaycanda sıfır variantından Avropa standartlarına uyğun elektrik enerjisi ilə təchizat sistemi qurmaq mümkün olardı.

Məlumatlara görə, hökumət yaxın aylarda "Azərenerji"ni özəlləşdirməyə hazırlaşır. Aydındır ki, hakimiyyətin yuxarı eşelonunun gözündən düşmüş E.Pirverdiyev özəlləşdirmədən sonra faktiki işsiz qalacaq, oliqarx-məmura yeni vəzifənin verilməsi də gündəmdə deyil. Hesablama Palatasının məlumatı da bu iddiaları bir daha təsdiqləyir. Xatırladaq ki, noyabrın 12-də prezident İlham Əliyevin sərəncamı ilə işdən çıxarılan rabitə və yüksək texnologiyalar naziri Əli Abbasovla E.Pirverdiyev qudadır.

❑ **"Yeni Müsavat"**

# Azərbaycana potensial üç təhlükəli ölkə-nə etməli?

## **Sülhəddin Əkbər:** "Xarici Kəşfiyyat Xidmətinin qarşısında çox ciddi problemlər var"

**Prezident İlham Əliyevin dekabrın 14-də imzaladığı fərmanla Milli Təhlükəsizlik Nazirliyi ləğv olunaraq iki hissəyə ayrıldı. Sərəncama əsasən, qurumun yerində Dövlət Təhlükəsizlik və Xarici Kəşfiyyat Xidmətləri vəzifələri yaradıldı. Mədət Quliyev Dövlət Təhlükəsizlik, Orxan Sultanov isə Xarici Kəşfiyyat Xidmətinin rəisi vəzifələrinə təyin edildilər.**

MTN-in sabiq birinci müavini Sülhəddin Əkbərdən yeni yaradılan Xarici Kəşfiyyat Xidməti barəsində ümumi dəyərləndirmə aldıq.

**S.Əkbər Xarici Kəşfiyyat Xidmətinin hər bir ölkə üçün vacib bir qurum olduğunu söylədi:** "İlk növbədə kəşfiyyatın nə olduğuna, vəzifələrinə baxmaq lazımdır. Kəşfiyyatın konkret vəzifəsi hər dövlətin milli maraqlarına uyğun olaraq, xaricdən informasiyaların əldə edilməsi, qiymətləndirilməsi və siyasi qərarların qəbulu üçün ölkə rəhbərliyinə təkliflər verməkdən ibarətdir. Hər bir dövlətin milli maraq dairəsi var. Xarici kəşfiyyat da əsasən bu dairədə məlumatlar toplayır. Azərbaycan Xarici Kəşfiyyat İdarəsini qurubsa, bu qurum belə adlansa da, ölkə daxilindən də kəşfiyyat apara bilər. Hətta üçüncü ölkə, eləcə də maraq dairəsində olan ölkə ərazisindən də informasiyalar toplaya bilər. Bu gün ilk növbədə ölkəmizə təhlükənin haradan gəldiyinə baxmaq lazımdır. Ölkəmiz üçün bu gün ən başlıca təhdid Rusiyadır. Əksər təhlükələr bu ölkədən qaynaqlanır. İkinci təhlükə Ermənistandır. Amma bu ölkəni müstəqil xarici



Sülhəddin Əkbər

təhdid hesab etmirəm. Çünki özü müstəqil strateji vahid deyil, Rusiyanın ələvəsidir. Bir də potensial təhdid mənbəyi zaman-zaman aktual olan məsələyə çevrilən İrandır. Azərbaycanın milli maraqları tələb edir ki, kəşfiyyatımız ilk növbədə Rusiya və onun əlavəsi olan Ermənistan, İran istiqamətində işlər görsün. Birinci növbədə hansı ölkələrdən təhdidlər gözlənilirsə, həmin ölkələrin Azərbaycana qarşı siyasətləri haqqında məlumat toplamaq, bu təhdidləri önləmək üçün qabaqlayıcı tədbirlər görmək, siyasi qərarların qəbulu üçün rəhbərliyə təkliflər vermək lazımdır. Təbii ki, Azərbaycana qarşı təhdid təkcə bu iki ölkədən deyil. Rusiyanın hər sahədə ölkəmizə qarşı təhdidi danılmazdır. Buna səbəb də Azərbaycanın Rusiyanın təhdid sferasına daxil olmasıdır. İran Rusiya ilə yaxın olduğundan ölkəmizə qarşı təhdid baxımından ikinci planda qalır. Milli maraqlarımız naminə zaman-zaman digər ölkələrdən də təhdidlər gözlənilir. Xarici kəşfiyyatımız milli maraqlarımız naminə hansı istiqamətdə çalışmaq vacibdirsə, o istiqamətdə də işlər görməlidir. Azərbaycana yönəlik bütün təhdidlər müəyyən olunmalı, təhdidlər kəskinliyinə görə sıralanmalıdır. Bu sıralamaya görə də işin istiqaməti müəyyən olunmalıdır".

**Sabiq MTN-çi yeni yaradılan qurumun kadr qıtlığı ilə də üzləşə biləcəyindən ehtiyatlandığını qeyd etdi:** "Açığı, bu qurumun yaradılmasına sevindim. Dünyada və regionda gedən proseslərə diqqət yetirsək, görərik ki, getdikcə kəşfiyyatın önəmi artacaqdır. Çünki proseslər sürətləndikcə, qabaqlayıcı tədbirlər görmək çətinləşir. Azərbaycanın bu baxımdan güclü kəşfiyyata ehtiyacı var. Kadr hazırlığına da xüsusi diqqət yetirmək lazımdır. Kəşfiyyatçı həm vətənpərvər, həm üstün intellektual, analitik səviyyəyə, həm də yüksək peşəkarlığa malik olmalıdır. İntellektual səviyyəli şəxsləri seçmək olar, amma onların peşəkar olması üçün zamana ehtiyac var. Yeni yaradılan Xarici Kəşfiyyat Xidmətinin qarşısında çox ciddi problemlər var. Xüsusilə kadr sahəsində. Bundan çox ciddi narahatam. Mənə elə gəlir ki, növbəti atılacaq təxirəsalınmaz addımlardan biri də keçmiş Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının işinin yenidən qurulmasıdır".

**S.Əkbər yeni qurumun hansı istiqamətdə işləməsindən, ölkədaxili proseslərə müdaxilə edib-etməməsindən də söz açdı:** "Demokratik ölkələrdə bu qurumun başqa istiqamətdə fəaliyyət göstərməsi qeyri-mümkündür. Çünki onun mexanizmləri var. İlk növbədə siyasi nəzarət mexanizmləri var. Demokratik ölkələrdə daim güclü müxalifət olur. Nəticədə müxalifətin nəzarəti olur. Digər tərəfdən, siyasi rəhbərlik tərəfindən nəzarət gücləndirilir. Eyni zamanda parlament nəzarəti də olur. Parlament nəzarəti həm də dolayısı yolla ictimai nəzarətdir. Müstəqil media olur və bunun da təsiri olur. Müstəqil məhkəmə və prokurorluq nəzarəti də bunlara daxildir. Amma qeyri-demokratik ölkələrdə gizli fəaliyyət göstərən qurumlar siyasi rəhbərlikdən asılı olur, onların qərarları, siyasi iradələri ilə idarə olunurlar".

❑ **Cavanşir ABBASLI**

# İşğalçı Ermənistanın izolyasiyası güclənir - düşmən təlaşda

## Təcavüzkar ölkənin Rusiya maraqlarının girovuna çevrilməsi onun vəziyyətini daha da ağırlaşdırmaqdadır; erməni ekspertlər blokadanın ağır iqtisadi nəticələri barədə SOS siqnalı verir...

**Dağlıq Qarabağ münaqişəsinin ən ağır nəticələrinin altını, gözlənildiyi kimi, işğalçı Ermənistan çəkməkdədir. Düşmən ölkə neçə vaxtdır düşdüyü iqtisadi-sosial, miqrasiya böhranından çıxmağın yollarını arayır. Lakin hələlik bu, mümkünsüz görünür, çünki böhrandan çıxmaqdan ötrü məntiqlə öncə ora niyə düşdüyünün səbəblərini araşdırmaq və bu səbəbləri etiraf eləmək lazımdır.**



Səbəb isə Azərbaycan ərazilərinin işğalı və qardaş Türkiyəyə qarşı əsassız torpaq və "soyqırım" iddialarının doğurduğu izolyasiyadır. Lakin izolyasiya reallığı erməni siyasi və ekspert dairələrində əsasən etiraf olunsa da, bundan o yana gedilmir, səbəblərə toxunulmur. Demək, işğalçı qonşumuzun qara günləri hələ çox çəkəcək. Bunu indi kim bilməsə də, erməni toplumunun nisbətən praqmatik düşünən təbəqəsi başa düşür və indidən həyəcan təbili çalır.

***

**Ermənistanın müxalifyönlü Iragir.am saytının siyasi şərhçisi Naira Ayrumyan bu xüsusda yazır:** "Ötən bazar Çindən ilk qatar Gürcüstana daxil oldu. Qatar "İpək yolu" marşrutu çərçivəsində Qazaxıstandan, Xəzər dənizindən bərə vasitəsilə Azərbaycana keçərək, oradan Gürcüstana çatıb. Gürcüstandan yüklər Türkiyəyə və Qara dəniz vasitəsilə Avropaya daxil ola bilər".

**Erməni təhlilçi ardınca haqlı olaraq qeyd edir ki, Ermənistan belə qlobal kommunikasiya layihələrindən kənarda qalmaqdadır:** "Bu, Azərbaycan və Türkiyə tərəfdən blokada və bir də Rusiyanın Ermənistana münasibətdə izolyasiya siyasəti nəticəsində baş verir. Ermənistanın Avrasiya İqtisadi Birliyinə qoşulması Rusiyaya imkan verdi ki, Gürcüstan vasitəsilə Ermənistanın Avropa Birliyi ilə azad ticarət zonası yaratmasını əngəlləsin. Bundan əlavə, Ermənistan İranla da azad iqtisadi ələqələr həyata keçirə bilmir. Bizim bütün nəqliyyat və kommunikasiya maraqlarımız Rusiyanın regionda öz təsirini itirməmək marağına gedib dirənir. Qlobal meyllər durmadan dəyişir və ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı da itirməkdədir".

Bu, doğrudan da belədir. Ermənistan işğalçılıq siyasəti Dağlıq Qarabağ məsələsində kompromissiz mövqeyi nəticəsində getdikcə daha güclü təcridə tuş gəlməkdədir. Ermənilər üçün vəziyyətin acınacaqlı tərəfi həm də ondadır ki, onlar yazıda da işarə edildiyi kimi, xilaskar və əsas təbii müttəfiq kimi baxdıqları Rusiyanın əməlli-başlı iqtisadi-siyasi maraqlarının girovuna çevriliblər. Gözlənildiyi kimi, siyasi-hərbi asılılıq iqtisadi asılılığa gətirib.



Bunu bir qədər öncə İran qazının Ermənistan vasitəsilə Gürcüstana nəqli mümkünlüyü ilə bağlı məsələ gündəmə gələndə də gördük. Məlum oldu ki, Rusiya hətta özünün bölgədəki yeganə forpostunun energetik müstəqilliyinə də qısqanc yanaşır. Aydın oldu ki, Kreml icazə versə, lazım bilsə, Ermənistan İran qazı üçün tranzit ölkə olacaq, icazə verməsə - yox.

Amma əvəzində Moskva Ermənistana son vaxtlar yeni silah-sursat göndərərək onu sürətlə hərbiləşdirməyə, Ermənistanı Türkiyə ilə mümkün və nəzəri savaşın ön plasdarmına çevirməyə çalışır ki, bu da yenə erməni ekspertlərinin də etiraf elədiyi kimi, erməni xalqına yeni fəlakətdən savayı heç nə vəd eləmir, olsa-olsa iki böyük dövlətin davasında "xırda pul" olmaq taleyindən xəbər verir.

***

**"Ermənistan Çinin yeni "İpək yolu" dəmiryolu layihəsinə qoşulmasa, kənarda qalacaq". Bunu ARKA agentliyinə iqtisadçı Vilen Xaçatryan deyib.** "Dekabrın 13-də Çindən Gürcüstana ilk qatar gəlib və bununla da rəsmən "İpək yolu" açılmış elan edilib. Qatar Çinin ucqar Lyanyunqan limanından İstanbula maksimum 14-15 günə çatacaq, halbuki gəmi ilə 40-45 gün çəkir. Əsas problem odur ki, bu yol ilk növbədə Ermənistandan yan keçməklə inşa edilib və Ermənistan bu nöqteyi-nəzərdən təzədən izolə edilmiş olur, nəinki ölkəmiz nəqliyyat qovşaqlarının mərkəzində yer alır" - vurğulayıb ekspert. Erməni iqtisadçı ardınca deyib: ""İpək yolu"nun başqa bir variantı Çin-Qazaxıstan-Türkmənistan-İrandır. Ermənistan bu yollara qoşulmasa, o zaman həmin yollar ondan yan keçəcək".

**Öz növbəsində iqtisad elmləri doktoru, professor Vardan Bostancyan hesab edir ki, "İpək dəmiryolu"nun açılması Ermənistanın da iştirak edə biləcəyi analoji nəqliyyat kommunikasiyaların açılmasının məqsədəuyğunluğunu istisna eləmir. Lakin onun fikrincə, bunun Ermənistana faydası ölkədə nə dərəcədə keyfiyyətli məhsulların istehsal edilməsindən asılı olacaq.**

"Region cəlbedici olmaqdadır. Odur ki, Ermənistan iqtisadiyyatın elə sahələrini stimullaşdırmalıdır ki, Çin və başqa ölkələr üçün cəlbedici olsun. Beləcə, biz güclü iqtisadiyyata malik olmalıyıq ki, digər dövlətlər bizə maraq göstərsinlər" - əlavə edib o.

***

Ancaq məsələ də ondadır ki, Ermənistan Azərbaycandan, Türkiyədən fərqli olaraq güclü iqtisadiyyat qurub xaricə çıxara biləcək keyfiyyətli, rəqabət qabiliyyətli məhsullar istehsal eləmək qabiliyyətində deyil. Bundan ötrü bütün qonşularla normal iqtisadi münasibətlərə malik olmaq, xarici sərmayələr üçün əlverişli, cəlbedici mühit yaratmaq lazımdır. Bu isə qeyri-realdır.

Əsas səbəb deyildi - işğaldan doğan izolyasiya. Bundan əlavə, Ermənistanın təcavüzkar siyasəti və müharibə vəziyyətində olması xarici sərmayədarları ürküdür və həmişə ürküdəcək. Ermənistan iqtisadiyyatının Rusiyanın nəzarətində olması Qərb inverstorları üçün başqa bir aşılmaz əngəldir.

Ayrı sözlə, müstəqil iqtisadi siyasətin yoxluğu, üstəgəl, korrupsiyanın yüksək səviyyəsi də təcavüzkar ölkənin normal inkişafı yolunda başqa ciddi maneələrdir. Ən böyük manea isə əlbəttə ki, Ermənistanın Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiasından əl çəkməyə hazırlaşmaması, Qarabağ məsələsində Rusiyanın diktəsi ilə qeyri-konstruktiv mövqe sərgiləməkdə davam eləməsidir.

## Rusiya-Türkiyə gərginliyinin Qarabağ əks-sədası

### Moskvadan "destruktiv" bəyanat...



**Rusiya ilə Türkiyə arasında hökm sürən gərginlik Qarabağ məsələsində də əks-səda verib. Rəsmi Moskva Ankaranın Qarabağ məsələsində Azərbaycanın mövqeyini müdafiə edən bəyanatlarını "destruktiv" adlandırıb (virtualaz.org).**

Rusiyanın ATƏT yanında daimi nümayəndəsi Aleksandr Lukaşeviç "Rossiya 24" telekanalına müsahibəsində deyib ki, Türkiyənin Dağlıq Qarabağ münaqişəsinə dair son bəyanatı dağıdıcı məqsədlərə yönəlib. Bundan əvvəl Türkiyənin baş naziri Əhməd Davudoğlu Bakıya səfəri zamanı bəyan eləmişdi ki, Ankara işğal edilmiş ərazilərin Azərbaycana qaytarılması üçün əlindən gələni edəcək.

"Dağlıq Qarabağ münaqişəsində tərəflərdən birini müdafiə etmək cəhdi destruktivdir və bunun heç bir davamı ola bilməz", - deyə Rusiya XİN rəsmisi bildirib.

Türkiyənin Qarabağ məsələsində Azərbaycanı dəstəkləyən bəyanatlar verməsi yeni deyil və rəsmi Ankara hər fürsətdə belə bəyanatlar verir. Lakin ilk dəfədir ki, Moskva açıq şəkildə Türkiyənin bu məzmunlu bəyanatlarına qarşı çıxaraq onu "destruktiv" adlandırır.

Məlumdur ki, Suriya ilə sərhəddə "Su-24" bombardmançısının vurulmasından sonra Moskva ilə Ankara arasında münasibətlər olduqca kəskinləşib. Rusiya prezidenti Vladimir Putin Cənub hərbi dairəsinin komandanlığına əmr edib ki, Ermənistanın Türkiyə ilə sərhədində S-400 zenit-raket kompleksləri, radioelektron mübarizə vasitələri, digər hərbi texnika və canlı qüvvə yerləşdirsin. Artıq Rusiyanın Ermənistandakı hərbi bazasına bir neçə hərbi vertolyot əlavə olunub. İlin sonunadək daha bir neçə hərbi vertolyotun Ermənistanda yerləşdiriləcəyi açıqlanıb. Rusiya mənbələri bunun Ankaranın Qarabağ məsələsində Azərbaycanı dəstəkləmək siyasətinə cavab olduğunu bildirir.

YENİ MÜSAVAT
N 280 (6308) 16 dekabr 2015

# Yumurta bahalaşdı, bazar qarışdı...

## **Eyyub Hüseynov:** "Azərbaycanda bir dəfə qalxan qiymət bir daha enməz"

**İllərdir davam edən "yumurtanın qiyməti" problemi yenidən aktuallaşıb. Səbəb isə odur ki, paytaxt bazarlarında yumurta qısa müddət ərzində 47 faiz bahalaşıb. İndi ərzaq dükanlarında və iri marketlərdə fabrik yumurtasının 1 ədədi 13-14 qəpiyə satılır. Belə ki, əgər əvvəllər yumurtanın 10 ədədi 70-90 qəpiyə təklif edilirdisə, bu gün 1manat 30 qəpiyə təklif edilir. Yumurtanın əhalinin gündəlik ərzaq səbətində nə qədər mühüm yer tutduğunu və tələbatın nə dərəcədə yüksək olduğunu nəzərə alsaq, 4-5 qəpiklik artım düşündüyümüzdən daha ciddi bir problemdir.**



Qiymət artımı rəsmi şəkildə təsdiqlənib. Rəsmi statistikaya görə, noyabr ayında yumurtanın 10 ədədinin ölkə üzrə orta qiyməti 1,38 manat olub. Bu, yanvar ayı (0,94 manat) ilə müqayisədə 46,8 faiz çoxdur. Kənd yumurtasına gəlincə, əvvəllər qiyməti 15-20 qəpik arasında dəyişirdisə, indi 20-30 qəpik arasında dəyişir.

Xatırladaq ki, 2011-ci ildə yumurtanın qiymətinin kəskin artması problemi yaşanarkən ölkə başçısı bu məsələ ilə bağlı çıxış edərək, süni qiymət artımının dayandırılmasını tələb etmişdi. Görünür, hazırkı situasiyada da ölkə başçısı səviyyəsində müdaxiləyə ehtiyac var.

**Yumurtanın bahalaşmasının səbəblərinə gəlincə, iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, bunun obyektiv və subyektiv səbəbləri var:** "Obyektiv səbəb kimi manatın devalvasiyasından sonra xaricdən alınan quş yemlərinin qiymətinin qalxması, quşçuluq firmalarında quşlara verilən dərmanların və onların böyüməsi üçün lazım olan preparatların qiymətinin artmasını göstərmək olar. Çünki dolların bahalaşması ilə əlaqədar adıçəkilən məhsulların ölkəyə gətirilməsi də bahalaşıb. Daxildə quş yemlərinin istehsalı kifayət qədər deyil. Baytarlıq ləvazimatları isə ümumiyyətlə istehsal edilmir, bütünlüklə xaricdən gətirilir. Subyektiv səbəb isə ölkəyə gətirilən mallara nəzarətin güclü olması və daxili bazarı qorumaq adı altında xaricdən gətirilə biləcək daha ucuz məhsullara nəzarətin həyata keçirilməsidir. Yaradılan bu monopoliya qiymətlərin də süni şəkildə dəstəklənməsinə səbəb olur. Əslində bunun çox asan yolları var. Türkiyədən Rusiyaya ixrac olunan məhsullara embarqo qoyulması fonunda həmin məhsulların, özəlliklə də yumurtanın Azərbaycana idxal edilməsi bazarda qiymətlərin hiss ediləndərəcədə yumşalmasına gətirib çıxara bilər".

**Ekspertin sözlərinə görə, bu məsələnin həlli üçün sadəcə rəqabətli mühit yaradılmalı və oyun qaydaları şəffaf olmalıdır ki, həm daxili istehsalçılar, həm də ölkəyə mal gətirənlər fəaliyyət göstərə bilsinlər:** "Bu rəqabətdən qazananlar da vətəndaşlar olacaq. Lakin bəzi dairələr, xüsusən də bazarlara nəzarət edən məmurlar bu rəqabətin yaradılmasında maraqlı deyillər".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə istehlakçıların hüquqlarının kobud şəkildə pozulduğunu bildirdi:** "Belə bir həqiqət var ki, Azərbaycanda bir dəfə qalxan qiymət bir daha enməz. Təsadüfi deyil ki, hələ 2011-ci ilin 16 yanvar tarixində Nazirlər Kabinetinin yığıncağından başlayaraq, ölkə prezidenti dəfələrlə qiymət artımının qarşısını almaq üçün iş aparılması ilə bağlı dövlət orqanlarına tapşırıqlar vermişdi. O zaman da yumurtanın qiymətinə toxunmuşdu. Səbəblərdən biri odur ki, marketlərdə böyük biabırçılıqlar var. Marketlər təkcə ticarətlə məşğul olmurlar, onlar mağazanın rəflərini icarəyə verirlər. Kim məhsulunu daha çox diqqət çəkən yerdə yerləşdirmək istəyirsə, o daha çox pul verməlidir. Elə yumurta satan şirkətlər də məhsullarını sata bilmək üçün piştaxtaları icarəyə götürür və pul ödəyirlər. Bu vəsait də məhsulun qiymətinin üzərinə oturur. Həmçinin marketlər məcbur edir ki, tələbatın nə qədər olmasından asılı olmayaraq piştaxta tam doldurulsun. Bu zaman da məhsulun bir hissəsi satılmadığından geri qaytarılır. Bundan daha çox çörək zavodları narahatdırlar. Bundan əlavə, hər satılan dövriyyədən market sahibləri pul alırlar. Yəni məhsulların üzərinə qiymət qoyub satmaqdan əlavə, hər 1000 manatlıq satışa görə 100 manat alırlar.

Marketin illik icarə haqqı ödənildikdən sonra da əlavə vəsait, müştərilərə hədiyyələr verilməsi və sair tələb olunur. Bu vəsaitlər isə vergidən yayınan pullardır".

**QHT sədri qeyd etdi ki, bütün bu yığımlar sonradan toplanaraq, məhsulun üzərinə gəlir və istehlakçının cibindən çıxır:** "Bu halların qarşısı alınmalı, marketlərin fəaliyyəti tənzimlənməli, süni qiymət artımının qarşısı alınmalıdır. Əgər dövlət bu tədbirləri görsə, qiymətlər 20-25 faiz aşağı düşər, istehlakçıların da hüquqları bu şəkildə pozulmaz. Bundan əlavə, ölkə başçısının da qeyd etdiyi kimi, karter sövdələşmələri var ki, iş adamları yığılıb birgə razılığa gələrək, məhsullarını yüksək qiymətə təklif edirlər. Bunun qarşısı alınmalıdır".

**Azərbaycanın əsas quşçuluq və broyler təsərrüfatlarını birləşdirən Respublika Quşçular Cəmiyyətinin sədri Aydın Vəliyev isə AzadlıqRadiosuna müsahibəsində deyib ki, son bir ayda quşçuluq müəssisələrində yumurta istehsalı 20-25 faiz artıb:** "İstehsal ən yüksək həddinə çatıb. Tələbat da artıb. Burada mövsüm amili də az rol oynamır. Yumurtaya olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Belə bir şəraitdə kimlərinsə qıtlıq haqqında danışması yersizdir. Bu gün yumurtanın 10 ədədi marketlərə 1,10 manata verilir. Dükan isə öz növbəsində 20 qəpik qazana bilər. Daha yüksək qiymətə yumurta satanlara görə istehsalçı cavabdeh deyil" - deyən A.Vəliyev xatırladıb ki, haqsız rəqabətə və qiymətlərin süni artımına nəzarət edən dövlət qurumu var və o, qanuni yollarla satıcıları intizama dəvət etməlidir.

❑ **Nərgiz LİFTİYEVA**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbəbəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 280 (6308) 16 dekabr 2015



# Manatın taleyi Amerikada həll olunur-kritik qərara bir gün qaldı

**Hazırda bütün iqtisadi göstəricilər yaxın zamanlarda manatın məzənnəsinin ucuzlaşacağından xəbər verir. Manatın məzənnəsi Mərkəzi Bank tərəfindən müəyyən olunsa da, ekspertlər bir çox amillərin milli valyutanın ucuzlaşmasına səbəb olacağını bildirirlər. Təbii ki, burada ən başlıca səbəb neftin dünya bazarındakı qiymətinin kəskin həddə ucuzlaşmasıdır. Artıq ötən gün neftin bir barelinin qiyməti 36 dollara düşərək, 40 dollarlıq psixoloji həddi keçib.**

Bundan başqa, yaxın günlərdə dünya valyuta bazarına, manatın məzənnəsinə də təsir edəcək amillərdən biri də dekabrın 16-da Amerikada Federal Ehtiyat Sisteminin (Mərkəzi Bank) iclasının keçirilməsi olacaq. ABŞ Mərkəzi Bankının sədri Janet Yellenin 2006-cı ildən bəri ilk dəfə olaraq uçot dərəcəsini artırması gözlənilir. Faiz dərəcələrinin 0,25-dən 0,5-ə qədər artırılması Federal Ehtiyat Sisteminin valyuta bazarına ən ciddi maddi müdaxiləsi kimi qiymətləndirilir. Bu dəyişikliyin dolların valyuta bazarında daha da möhkəmlənməsinə səbəb olacağı gözlənilir. Bu faktın özü təklikdə manatın məzənnəsinin ucuzlaşmasına səbəb olacaq. Hətta bu baş verməsə belə, Mərkəzi Bankın rezervləri daha sürətlə xərclənəcək.

**İqtisadçı alim Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Federal Rezerv Bankının (FRB) qərarı dünya valyuta bazarına təsir göstərəcək ki, bu da manatın məzənnəsinə yansıyacaq:** "Nəzərə alsaq ki, Çin valyutasının növbəti devalvasiya prosesi gedir, bu kontekstdə ABŞ da öz milli valyutasının kəskin şəkildə dəyər qazanmasında maraqlı olmayacaq. Çünki bu halda Çinin ixrac etdiyi malların daha çox ucuzlaşma ehtimalı var ki, bu da Amerika idxalında Çin məhsullarının yüksəlməsinə səbəb ola bilər. O baxımdan təbii ki, Federal Rezerv Bankının qərarı da dolların kəskin şəkildə möhkəmləndirilməməsinə yönələcək. Əgər Federal Rezerv Bankı ABŞ dollarının möhkəmləndirilməsi ilə bağlı qərar verərsə, bu qlobal valyuta bazarına da təsir göstərəcək".



**Vüqar Bayramov:**
"Əgər Federal Rezerv Bankı ABŞ dollarının möhkəmləndirilməsi ilə bağlı qərar verərsə..."



**Natiq Cəfərli:**
"Bunun dünya valyuta bazarına, birjalara, eləcə də Azərbaycana təsiri dekabrın 18-dən sonra daha çox nəzərə çarpacaq"

**İqtisadçı alim vurğulayıb ki, qlobal valyuta bazarında baş verən dəyişikliklər Azərbaycanda manatın məzənnəsinə təsir göstərəcək:** "Xüsusən də Mərkəzi Bank ikivalyutalı səbətə keçib. Avro möhkəmləndiyi halda dolların nisbətən dəyər qazanması, avronun zəiflədiyi halda isə dolların manatı sıxışdırması müşahidə edilir. Nəzərə alsaq ki, manatın məzənnəsi ilə bağlı ən vacib amillərdən biri Mərkəzi Bankın xarici valyuta ehtiyatlarıdır. Çünki Mərkəzi Bank xarici valyuta ehtiyatları ilə bazara birbaşa təsir göstərir. Bir tərəfdən Dövlət Neft Fondunun öz xarici valyuta ehtiyatlarını bazara çıxarmasının təsiri var. Eyni zamanda Mərkəzi Bank da xarici valyuta ehtiyatlarından istifadə etməklə bazara birbaşa təsir göstərməyə çalışır".

**Vüqar Bayramovun sözlərinə görə, hazırda manatın məzənnəsi neftin qiymətindən daha çox asılıdır:** "Manatın gələcək məzənnəsi neftin dünya bazarındakı qiymətindən də asılıdır. Neftin qiyməti ölkəyə daxil olan valyutanın həcmini müəyyənləşdirir.

Neftin qiyməti aşağı olarsa, ölkəyə daxil olan valyutanın həcmində azalma, yüksək olarsa artım qeydə alınır. Məzənnə siyasəti isə inzibati yolla Mərkəzi Bank tərəfindən müəyyənləşir. Artıq 2016-cı ildən AMB mümkündür ki, xarici borclanma hesabına mövcud məzənnə siyasətini davam etdirəcək və manatı qoruyub saxlayacaq.

Bu zaman Mərkəzi Bank dollarlaşma prosesinin azalmasını, sona çatmasını gözləyəcək.Dollarlaşma prosesi sona çatdıqdan sonra isə yeni məzənnə siyasətini tətbiq edəcək. Dollarlaşma prosesinin tam olaraq başa çatması üçün isə Mərkəzi Bank əlavə xarici valyuta ehtiyatlarından istifadə etməlidir ki, bazardakı intervensiya siyasətini davam etdirə bilsin".

**İqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a danışarkən qeyd etdi ki, uçot dərəcəsinin 0,25-dən 0,5-ə qaldırılması gözlənilir və bu da dolların kursunu yüksəldəcək:** "Amerikanın Federal Rezerv Sisteminin iclası başlayır. Zaman fərqinə görə qərarlar Azərbaycan vaxtı ilə dekabrın 17-də axşam saatlarında açıqlanacaq. Bunun dünya valyuta bazarına, birjalara, eləcə də Azərbaycana təsiri dekabrın 18-dən sonra daha çox nəzərə çarpacaq. Əslində Federal Rezerv Sisteminin payı artıracağı haqqında ümumi bir rəy formalaşıb. Səs verəcək 10 nəfərdən 6-sı artıq lehinə olduğunu açıqlayıb. Qalan 4 nəfər əleyhinə səs versə belə, məsələ artıq həll olunmuş sayılır. Hərçənd ki, həmin 4 nəfərdən ikisinin leyhinə səs verəcəyi gözlənilir. Hazırda uçot faiz dərəcəsi üzərində mübahisə gedir. Mənim gözləntilərim odur ki, uçot cəmi 0,25 faiz artacaq. Ancaq bəzi analitiklər bunun 0,5 ola bilmə ehtimalını irəli sürürlər. Uçot dərəcəsi gözləntilər çərçivəsində artsa, bu, dünya bazarında dolların bahalaşmasına səbəb olacaq. Bu prosesin Azərbaycana da təsiri olacaq. Çünki Mərkəzi Bank manatın məzənnəsini inzibati qaydada müəyyən edir, dollar və avronun bir-birinə çarpaz məzənnəsini də nəzərə alır. Bu baxımdan dollar və avronun çarpaz məzənnəsi nə qədər artacaqsa, biz onun manata təsirini də görəcəyik. Azərbaycan əhalisinin əsas gözləntisi dollardır. Avro o qədər də populyar deyil. Bu baxımdan manatın məzənnəsinin təkcə bu səbəbdən ucuzlaşacağı gözləniləndir. İkinci bir məsələ neftin qiymətidir. Həm Mərkəzi Bank rəhbəri, həm maliyyə naziri dəfələrlə açıqlama veriblər ki, Azərbaycan üçün psixoloji hədd 40 dollardır. Neftin qiymətinin 40 dollardan aşağı düşəcəyi təqdirdə manatın məzənnəsində də dəyişikliklər ola bilər. Amma artıq 5 gündür ki, neftin qiyməti 40 dollardan aşağı düşüb. Bunun da manatın məzənnəsinə təsiri olacaq. Ola bilər ki, yaxın günlərdə Mərkəzi Bank bununla bağlı addımlar atsın".

❑ Nərgiz LİFTİYEVA

# Məmur xəstəliyi - şəkərli diabet

Tibb ekspertləri zənginlərin, vəzifəli şəxslərin ona niyə tez-tez tutulmasının səbəblərindən danışır...

**Son zamanlar yüksək vəzifə tutan məmurların demək olar ki, əksəriyyətinin şəkər xəstəliyindən (şəkərli diabet) əziyyət çəkməsi ilə bağlı məlumatlar yayılır. Xüsusən də daha çox vəzifəsindən azad edilən, haqqında cinayət işi açılan məmurlar bu xəstəliyə düçar olurlar.**

Məsələn, bugünlərdə mətbuatda yayılan xəbərə görə, Beynəlxalq Bankın İdarə Heyətinin artıq həbsdə olan sabiq rəhbəri Cahangir Hacıyev də məhz şəkər xəstəliyindən əziyyət çəkir. Xatırladaq ki, bu ilin martında yayılan rəsmi məlumata görə, Beynəlxalq Bank sədri 50 yaşında xəstəliyi ilə bağlı istefaya göndərilib.

Bəs səbəb nədir, niyə məhz şəkər xəstəliyi?

Tibbi ekspertlərə görə, əsas səbəblərdən biri tez-tez baş verən stresslər, qorxu hissləridir. Doğrudur, bu xəstəlik şəkərə meylli insanlarda güclü sinir sarsıntısı nəticəsində daha çox inkişaf edir. Lakin qeyd edilir ki, şəkərə meylli olmayan şəxslərdə də güclü sarsıntı və streslər bu xəstəliyin inkişaf etməsinə səbəb ola bilir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla məsələ ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, məmurlar çoxlu yağlı qidalardan istifadə etdikləri, az hərəkətli olduqları üçün və ən əsası, streslərlə əhatələndiyindən bu xəstəliyə daha çox düçar olurlar:** "Şəkər xəstəliyi bu gün dünyanın əsas problemlərindən sayılır. Bu, qanda xolesterinin artması, maddələr mübadiləsi prosesinin pozulması nəticəsində yaranan xəstəlikdir. Xəstəlik insanda əmək qabiliyyətinin itirilməsi, müxtəlif fəsadların əmələ gəlməsinə gətirir. Xüsusən də ağır çəkili şəxslərin əksəriyyətində qlükoza pozulur və şəkər xəstəliyinə meyllilik artır. Məmurlar, müxtəlif imkanlı təbəqədən olan insanlar arasında bu xəstəliyin yayılmasına səbəb olan ən birinci faktorlar həddindən artıq çox və yağlı qida qəbul etmək, az hərəkətli olmaq və təbii ki, stresdir. Streslər immun sisteminin fəaliyyətini pozaraq bütün orqanizmi fövqəladə rejimdə işləməyə vadar edir. Bu zaman qana adi halda olduğundan xeyli artıq miqdarda hormonlar ifraz olunur. Məmurlarımız demək olar ki, daima avtomobildən istifadə edir, əksərən oturaq iş tərzində fəaliyyət göstərirlər. Nəticədə qəbul edilən qida kalorisi ilə sərf olunan kalori arasında fərq yaranır, bu da bədəndə artıq kalorinin toplanmasına, artıq çəkiyə, piylənməyə və şəkər xəstəliyinin yaranmasına səbəb olur".



**Professor xəstəliyin irsi xarakter daşıdığını da xatırlatdı:** "Xüsusən də valideynlərinin hər ikisində şəkər xəstəliyi olan şəxslərdə xəstəliyin inkişaf etmə riski daha yüksək olur". **Adil Qeybulla şəkərli diabetin qarşısını almaq üçün aşağıdakı tövsiyələrini də verdi:** "Bunun üçün az qida qəbul etmək, sağlam həyat tərzi keçirmək, çox hərəkətli olmaq lazımıdır".

**Psixoloq Dəyanət Rzayev də məsələyə öz şərhini bildirdi:** "Hər xəstəliyin müəyyən səbəbləri var. Ciddi emosiya, stress, həyəcan, həbs olunma, işdən çıxarılma kimi qorxu hissləri insanlarda ağır xəstəliklərin baş qaldırmasına səbəb olur. Məsələn, kinli insanların rəngləri solmuş qara rəngdə olur, onlarda qaraciyər xəstəlikləri özünü daha çox büruzə verir. Çox böyük vahimə böyrəklərə mənfi təsir göstərir və s. Məlumdur ki, məmurlar daha çox oturaq həyat tərzi keçirir, normal həyat yaşamırlar, daima stresdədirlər. Onlar öz acgözlüklərinin girovuna çevriliblər. Nə qədər çox mal-mülk sahibi olduqca stress də bir o qədər artır. Eyni zamanda uzun müddət bir yerdə işlədikdən sonra oranı tərk etmək də orqanizmə ciddi təsir göstərir, işdən çıxan kimi çoxu infarkt keçirir. Adi insanlarda da belədir, daima işdə işləyən şəxslər artıq işsiz qaldıqda depressiyaya düşür. Bu daha çox yaşlı insanlar arasında olur".

❑ Xalidə GƏRAY



## Neftin bəzi növləri 20 dollara düşdü

**WTI və Brent markalı neft 35-37 dollara qədər ucuzlaşdığı halda neftin ucuz növlərinin bir barelinin qiyməti 30 dollardan da aşağı satılır. Bunlar Mexican mix, Western Canada Select və Iraq Basrah Heavy markalı neftdir.**

Bu barədə "Blomberg" məlumat yayıb. Meksika nefti 28 dollardan ucuz, İraq nefti 25 dollar, Kanada nefti 22 dollardan da ucuz satılır.

"Blomberg"in məlumatına görə, Meksika nefti son 18 ayda 73% ucuzlaşaraq 2004-cü ildən bəri minimum həddə çatıb. Kanadanın Western Canada Select markalı nefti 8 illik minimuma çataraq 21,37 dollara satılıb. Həmçinin Venezuela Basket, Ecuador Oriente, Saudi Arab Heavy markalı neftin qiyməti 30 dollardan aşağı düşüb.

# YENİ MÜSAVAT

Son səhifə

N 280 (6398) 16 dekabr 2015


# Köhnə qarajdan xəzinə çıxdı

İngiltərədəki qapısı son dəfə 50 il əvvəl açılmış köhnə, yastı-yapalaq qarajda, sən demə, əsl xəzinə varmış. Orada "Brough Superior" markalı 8 motosiklet tapılıb. "Motosikletlərin Rolls-Royce-u" adlandırılan bu motosikletlər həddən artıq bahalı, əntiq və nadir ikitəkərli nəqliyyat vasitəsi sayılır.



Qarajda aşkarlanmış 8 motosiklin ilkin satış qiyməti 5 milyon dollardır. Milli.az "Daily Mail"ə istinadən bildirir ki, "Brough Superior"lar 1924-1940-cı illərdə dünyanın ən populyar motosikletləri olub. 8 nadir motosiklet Britaniyanın Kornuoll qraflığındakı Bodmin şəhərindəki malikanələrdən birinin qarajında olub. Bu modelin hazırlanmasında tarixə "Ərəbistanlı Lourens" kimi düşən britaniyalı polkovnik-leytenant Tomas Edvard Lourens yaxından iştirak edib. Lourens 1935-ci ildə, 46 yaşında qəzada həlak olub.



## Kralı lağ elədiyinə görə həbs edildi

Facebookda Tailand kralına lağ etmək məqsədi ilə çəkilmiş şəkli paylaşan gəncə 32 il həbs cəzası verilə bilər. Tanakorn Siripaibon adlı gənc kral Bhumibol Adulyadejin fotoşop proqramı ilə hazırlanmış şəklini bəyənib, sonra ilə onu paylaşıb. Gənc oğlanın şəkli paylaşmasından sonra polislər onu nəzarətə götürüb. Məhkəmədən əvvəl T.Siripaibona 32 il həbs cəzası veriləbiləcəyi haqda dedi-qodular yayılmağa başlayıb. Maraqlıdır ki, gənc oğlanın hansı həbsxanada saxlanıldığı haqda heç bir məlumat verilmir. 27 yaşlı gənc rüşvətxorluqla bağlı şəkillər paylaşmaqda da ittiham edilir.



## Texnologiyaya görə işə getmirlər

İngiltərədə aparılan araşdırmalar nəticəsində məlum olub ki, işləyən şəxslər ağıllı telefonlarla çox vaxt keçirdikləri üçün boyun və barmaqlarında güclü ağrılar əmələ gəlir. Uzun müddət davam edən ağrılar nəticəsində bir çoxları işə gedə bilmir. Londondakı Camden Məclisinin araşdırmaçıları texnologiyanın asılılığa çevrildiyini və bunun da insanları çox yorğun hala gətirdiyini deyiblər. Çalışanların 19,2%-i barmaq və boyun ağrılarına görə işə gedə bilmədiklərini açıqlayıblar. Mütəxəssislər isə ağıllı telefon və kompüterlərlə uzun vaxt keçirməyin onurğa problemlərini artırdığını deyiblər.

# Qara zirənin möcüzələri

Qara zirəni və yağını müalicə əlacı kimi istifadə etməzdən öncə bir sıra məlumatlardan xəbərdar olmağınız yerinə düşər. Belə ki, qara zirə hüceyrələrdəki metabolizm fəaliyyətinə kömək edir. Hüceyrələrin inkişafı və yeniləşməsində qara zirəyə ehtiyac vardır. Bədənə lazım olan hormonların inkişafına təsir edir.

Qara zirə allergiyanın yaranmasına səbəb olan histamin maddəsinin qanda artmasının qarşısını alır. Hormonların yaranmasında iştirak etdiyi üçün möhkəm bir hormon müdafiəsini və sinir sisteminin fəaliyyətini təmin edir, immun blokadasının aradan götürülməsinə yardımçı olur, müdafiə hüceyrələrinin lazım olduğundan artıq iş görməsinə əngəl yaradır, hüceyrələrin məhv olması, yeniləşməsi və hüceyrə divarlarının möhkəmlənməsində iştirak edir, qanda xolesterolu normallaşdırır, qan damarlarındakı qanın sürətini tənzimləyir və tıxanmaların qarşısını alır, yüksək qan təzyiqini endirir və aşağı təzyiqi, nəbzi normaya salır və ürəkdə ilk infarkt riskini azaldır, habelə yaralanmış yerlərin tez yaxşılaşmasına və dərinin qüsurlarının aradan qaldırılmasına kömək göstərir.





## Beyni burnunun içindədir

Ollise Trezise adlı bir uşaq çox nadir hallarda rast gəlinən "Ensefalosel" adlı xəstəliklə dünyaya gəlib. Bu xəstəliyin daşıyıcılarının beyin hüceyrələri burnunun içində olur. Beyin hüceyrələri inkişaf etdikcə xəstənin burnu da böyüyür. İngiltərədə yaşayan balaca qız bu günə qədər bir neçə dəfə əməliyyat edilib. 21 aylıq qızcığazın yaşamasının ən böyük səbəbi isə anasının xüsusi qayğısıdır. Amy Pool adlı qadın qızına "yaşayan Pinokio" deyir. Ollie ilk dəfə 9 aylıq ikən əməliyyat edilib rahat nəfəs almağa başlayıb. Həmin əməliyyatda beynindəki əlavə maye də götürülüb. Əməliyyatdan sonra başında qəribə izlər qalan qız anasına hər dəfə gülür. Bu da anasının ümidlərini hər gün bir az daha artır. Hazırda Ollie rahat oynayıb hərəkət edə bilsə də burnu yavaş-yavaş böyüyə bilər. Buna görə də uzun müddət nəzarətdə saxlanılacaq.




**QOÇ** - Kifayət qədər düşərli vaxtdır. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Amma kiməsə yalan vəd verməyə çalışmayın. Qonaq getmək sizə rahatlıq gətirə bilər.

**BUĞA** - Ulduzlar əsəblərinizin sakitləşməsindən fərəh duyur. Əgər təmkininizi beləcə tənzimləsəniz, heç bir qanqaraçılıq olmayacaq. Gün ərzində maraqlı adamlarla görüşləriniz də gözlənilir.

**ƏKİZLƏR** - Evdə tək-tənha oturmaqdansa ürəyinizə yaxın insanların arasında olun. Bu gün sizə çoxsaylı fikir mübadiləsi aparmaq səmərə verəcək. Riskli işlərdən uzaq olun.

**XƏRÇƏNG** - Bu gün xeyli aktiv məqamlar yaşayacaqsınız. Hətta şəxsi büdcənizdə müəyyən irəliləyişlər də mümkündür. Axşama yaxınsa sevindirici hadisələrin şahidi olacaqsınız.

**ŞİR** - Həddindən ziyadə düşərli təqvimdir. Təxminən saat 12-dən 17-yə qədər rastlaşdığınız hər bir hadisə ürəyinizcə olacaq. Təzə xəbər və ya təkliflər də ala bilərsiniz. Qətiyyətli olun.

**QIZ** - Sevgi münasibətlərində mövcud olan soyuqluğu aradan qaldırın. İmkan verməyin ki, davranışlarınız dedi-qodu səviyyəsində formalaşsın. Təcrübəli adamlarla məsləhətləşməyə çalışın.

**TƏRƏZİ** - Maraqlı hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, çoxdan bəri əlaqə saxlaya bilmədiyiniz adamlarla rastlaşasınız. Günün ikinci yarısında ziyarətgahlara getmək sizi yüngülləşdirəcək.

**ƏQRƏB** - Qarşınızda duran bu təqvim sizin üçün xüsusi əhəmiyyət kəsb edəcək. Ulduzların düzümü uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağı tövsiyə edir. Qərarlarınızda məsuliyyətli olun.

**OXATAN** - Nəzərdə tutduğunuz işləri icra etməkdən çəkinməyin. Çalışın ki, təşəbbüskarlığı əldən verməyəsiniz. Qarşıdakı yarım ayda görəcəyiniz işləri indidən götür-qoy etsəniz, sizin üçün daha əlverişli olar.

**OĞLAQ** - Daimi ünsiyyətdə olduğunuz şəxslərlə mülayim davranın. Əgər saat 14-ə qədər təmkin göstərsəniz, narahatçılıq olmayacaq. Axşama doğru ürəkaçan hadisələrin iştirakçısına çevriləcəksiniz.

**SUTÖKƏN** - Özünüzü gərginliyə atmayın. Səmərəsiz danışıqlarda, sıxıntılı görüşlərdə iştirak etməkdən çəkinin. Əgər maraqlı heç nə olmasa, yaxın adamlarınıza baş çəkib sürə başında "dərdləşin".

**BALIQLAR** - Nahara qədər ailə üzvləriniz-lə, eləcə də qonum-qonşularla mübahisə etməkdən çəkinin. Hər sözə əhəmiyyət verməyin. Daha çox ürəyinizə qulaq asın. Sonrakı saatlarda sevinəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 1 qramı 151 milyon dollar



İngiltərənin Oksford Universitetinin alimləri karbon və azot atomlarını birləşdirərək dünyanın ən bahalı maddəsini hazırlayıblar. 1 qramı 151 milyon dollar olan yeni maddənin köməyi ilə atom saatları mobil telefonların ölçüsünə qədər azalacaq.

3 milyon ildə 1 saniyə xəta etmə ehtimalı olan atom saatları hələ də bir otaq böyüklüyündədir. Yeni hazırlanan maddənin atom saatlarını kiçildəcəyi gözlənilir. Oksford Universitetindəki Designer Carbon Materials adlı qrup tərəfindən hazırlanan yeni maddənin 200 mikroqramı ilk müştərisinə 33 min 250 min dollara satılıb.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300